YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 sentyabr 2026-cı il, cümə axşamı
№ 163 (7230)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Regional əməkdaşlıqdan qlobal dialoqa...



## Azərbaycanın yaratdığı reallıqlar davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün münbit zəmin formalaşdırıb

Bax səh. 2

# Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub

Bax səh. 4

## Dövlət büdcəsinin gəlirlərində yüksək artım

2026-cı ilin yanvar-avqust aylarında dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Dövlət büdcəsinin gəlirləri 26 milyard 486,5 milyon manat təşkil edib ki, bu da proqnozu 780,2 milyon manat və ya 3 faiz üstələyib. Dövlət büdcəsinin gəlirlərində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 12 milyard 619,1 milyon manat təşkil edərək proqnozdan 900,1 milyon manat və ya 7,7 faiz çox olub. Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 37,7 milyon manat olmaqla proqnozu 7,3 milyon manat və ya 23,8 faiz çox üstələyib. Sair daxilolmalar isə 462,5 milyon manat təşkil edərək proqnozdan 77,1 milyon manat və ya 20 faiz çox , Dövlət Neft Fondundan transfert isə 8 559,0 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 4 326,9 milyon manat, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar isə 481,3 milyon manat icra olunub.

Qeyd edilən dövrdə büdcədə fiskal yığımların əsas mənbəyi Neft Fondunun transfertləri nəzərə alınmadan əsas etibarilə qeyri-neft gəlirləri təşkil edib. Belə ki, təkcə vergilərin 9,5 milyarda manata yaxını qeyri-neft-qaz sektorundan daxilolmalardır. Bu sahə üzrə büdcəyə proqnozdan əlavə 281,7 milyon manat vəsait ödənilib ki, bu da 2025-ci ilin müvafiq dövrünə nisbətən 12,3 faiz çoxdur.

Yanvar-avqust ayları ərzində...

Bax səh. 3

## Diasporumuz beynəlxalq arenada...




Bax səh. 8

## AK İspaniyaya 114,7 milyon avro ayıracaq

Bax səh. 6

## Taliban ABŞ-ın tələbini rədd edib

Bax səh. 6

## Susduqca böyüyən problem...

Bax səh. 8

## 2030-cu ilə qədər 17 hədəf

Asiya İnkişaf Bankı (AİB) çoxistiqamətli maliyyələşmə proqramı çərçivəsində investisiyaları hazırda yeni təşəbbüslərə - logistika və nəqliyyat layihələrinə, limanlara, gəmiçiliyə və multimodal logistik infrastrukturların modernləşməsinə yönəltmək niyyətindədir. Bankın baş nəqliyyat mütəxəssisi Adrian Sammons Bakıda keçirilən "Black and Caspian Freight Forum 2026: Corridors, Infrastructure, Investments" adlı 5-ci Beynəlxalq Konfrans və Sərgisində bildirib ki, Mərkəzi Asiya Regional Əməkdaşlıq (CAREC) Proqramı üzrə yeni layihənin əsas məqsədi maliyyələşdirilməsi iqlimə davamlı limanları, logistikanı və gəmiçilik sektorlarının imkanlarını artırımasıdır. Layihə Xəzər, Qara dəniz və CAREC regionunda dayanıqlı ticarət koridorlarının qurulmasını və rəqəmsallaşdırılmasını nəzərdə tutur.

Bankın prezidenti Masato Kanda bir müddət əvvəl AİB-in Səmərqənddə keçirilən 59-cu İllik Toplantısında bəyan edib ki, Asiya Bankı 2030-cu ilə qədər Cənubi Qafqaz və Mərkəzi Asiyada regional bağlılığa, təmiz enerjiyə, rəqəmsal transformasiyaya və inklüziv infrastruktura 10 milyard dollardan çox sərmayə yatırmağı planlaşdırır. Yenilənmiş tərəfdaşlıq proqramına əsasən, bu region ölkələrində yeni texnologiyaların tətbiqini və rəqəmsal iqtisadiyyatı təşviq edən layihələrin icrası və rəqəmsal transformasiyanın dərinləşməsi üçün inklüziv infrastrukturlara 10 milyard dollardan çox sərmayə yatırılacaq.

Qeyd edək ki, "Özəl Kapitalın Cəlb Edilməsi göstəricisinin hazırlanması və tətbiqinə dəstək" layihəsi çərçivəsində ilk maliyyə tranşı təsdiqlənib və icra olunacaq layihələrin maliyyə-investisiya...

Bax səh. 3

## İrəvan üçün seçim anı



Bax səh. 7

## "OPEC+" ölkələri razılaşdı




Bax səh. 7



# Birinci vitse-prezident Mehriban Əliyevadan paylaşım

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq artisti Aleksandr Şarovskinin vəfatı ilə bağlı sosial media hesablarında paylaşım edib.**

**Paylaşımı təqdim edirik: "Aleksandr Yakovleviç Şarovski. Məkanın cənnət olsun, böyük Ustad!".**



# Regional əməkdaşlıqdan qlobal dialoqa...

## Azərbaycanın yaratdığı reallıqlar davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün münbit zəmin formalaşdırıb

Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət müstəqil Azərbaycanı zirvələrə yüksəldib. Bu gün dünyada orta güc dövləti kimi qəbul edilən respublikamız regionun əsas aktoru olmaqla yanaşı, beynəlxalq miqyasda izlənilən proseslərdə də yüksək fəallıq göstərir, qlobal həmrəyliyin möhkəmlənməsinə davamlı töhfələr verir.

Əlamətdar haldır ki, ölkəmizin beynəlxalq səviyyədə artan rolu dünyada tanınan nüfuzlu siyasətçilər və müxtəlif beyin mərkəzlərinin analitikləri tərəfindən də yüksək dəyərləndirilir. Bu günlərdə baş tutan "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda ifadə olunan fikirlər bunu bir daha təsdiqlədi. Müxtəlif ölkələrin və dünyada tanınan ayrı-ayrı siyasi, iqtisadi platformaların təmsilçilərinin qatıldıqları konfrans Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və İsveçrənin Sent-Qallen Universitetinin nəzdində fəaliyyət göstərən Avropada İdarəçilik və Mədəniyyət Mərkəzinin (Center for Governance and Culture in Europe - GCE-HSG) birgə təşkilatçılığı ilə keçirilib. İki gün davam edən tədbir çərçivəsində Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlığın gələcəyi, 44 günlük müharibədən sonra regionda formalaşan yeni geosiyasi reallıqlar, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, nəqliyyat və kommunikasiya əlaqələrinin inkişafı, yeni infrastruktur layihələri, iqtisadi inteqrasiya, TRIPP layihəsi, mümkün xarici risklər, eləcə də Avropa İttifaqının regionda dayanıqlı əməkdaşlığın və bağlantıların gücləndirilməsində rolu əsas müzakirə istiqamətlərini təşkil edib.

### Sülh təşəbbüsünün regional təhlükəsizlik və əməkdaşlıq üçün yaratdığı imkanlar

İkinci Qarabağ müharibəsindən əvvəlki və sonrakı dövrlərdə Cənubi Qafqazdakı vəziyyət tamam fərqli olub. Ötən əsrin səksəninci illərinin sonlarında və doxsanıncı illərinin əvvəllərində keçmiş ittifaq məkanında cərəyan edən proseslər nəticəsində Azərbaycan, Gürcüstan və Ermənistan müstəqillik əldə etmək imkanı qazansalar da, sabitlik, təhlükəsizlik və əməkdaşlıq baxımından vəziyyət arzuolunmaz idi. Belə vəziyyətin yaranmasına isə ilk növbədə Ermənistanın havadarlarının dəstəyi ilə Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirməsi səbəb olmuşdu. Elan olunmamış müharibə regionu təhdidlərlə və davamlı risklərlə üzüzə qoymuşdu. Xüsusilə də Ermənistandan, Qarabağdan, zəbt olunan ətraf rayonlardan bir milyondan artıq qaçqın və məcburi köçkün qəbul edən Azərbaycan humanitar fəlakətlə qarşılaşdı. Ermənistan silahlı qüvvələri keçmiş təmas xətti boyunca tez-tez təxribatlar törədir və ətraf ərazilərə hücum çəkməklə dinc əhalini öldürür, mülki infrastruktura böyük ziyan vururdu. Təbii ki, təxminən 30 il ərzində sülhə sadiqliyini nümayiş etdirən və aparılan danışıqlarda konstruktiv mövqe sərgiləyən Azərbaycan ərazi bütövlüyünün və suverenliyinin pozulması faktı ilə barışa bilməzdi və barışmadı da. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu düşmənin növbəti genişmiqyaslı təxribatlarına cavab olaraq əks-hücum əməliyyatına başladı və cəmi 44 gün ərzində Ermənistanı tam kapitulyasiyaya məruz qoydu. Müharibənin nəticələrinə uyğun olaraq ölkəmiz ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi. Bundan sonra 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror əməliyyatı da uğurla nəticələndi, Qarabağda separatizmin kökü tamam təmizləndi və suverenliyimiz bütün ölkə üzrə təmin edildi.

Bəhs olunan konfransda yaxın tariximizdə baş verən və sonrakı mərhələdə regional proseslərə güclü şəkildə təsir göstərən bu hadisələrə xüsusi diqqət çəkilib. Konfrans çərçivəsində keçirilən "İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz: Yeni regional düzən?" adlı panel müzakirəsində çıxış edən hüquqşünas, araşdırmaçı, İspaniya Deputatlar Konqresinin və Senatının keçmiş üzvü Jordi Xucla Cənubi Qafqazda son dövrdə sülhün möhkəmlənməsi və regional inteqrasiyanın inkişafı istiqamətində mühüm proseslər baş verdiyini bildirib. O, 2020-ci il İkinci Qarabağ müharibəsini mühüm dönüş nöqtələrindən biri kimi səciyyələndirib və bunun sonrakı mərhələdə regional proseslərə təsir göstərdiyinə diqqət çəkib. Onun sözlərinə görə, 2025-ci ilin avqustundan etibarən regionda baş verən proseslər sülhün möhkəmləndiyini və regional inteqrasiyanın irəlilədiyini göstərir. Bu dəyişikliklər Cənubi Qafqazda əvvəlki geosiyasi reallıqların tədricən aradan qalxmasına və yeni əməkdaşlıq imkanlarının meydana çıxmasına şərait yaradır.

Oxşar fikirləri həmçinin beynəlxalq konfransda çıxış edən Avropada İdarəçilik və Mədəniyyət Mərkəzinin (GCE-HSG) Akademik Şurasının üzvü Ulrix Şmid də ifadə edib. Onun sözlərinə görə, Cənubi Qafqazda baş verən proseslər, Azərbaycanla Ermənistan arasında yeni sülh təşəbbüsünün regional əməkdaşlıq üçün yaratdığı imkanlar beynəlxalq ekspert dairələrinin diqqət mərkəzindədir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığı qələbələr sayəsində Cənubi Qafqaz coğrafiyasında yeni reallıqlar yaranıb. Bu reallıqlar Ermənistanın işğalçılıq siyasəti aparması səbəbindən onilliklər boyunca davam edən münaqişədən sonra regionda davamlı sülhün, əməkdaşlığın və təhlükəsizliyin təmin olunması üçün münbit zəmin formalaşdırıb.

Eyni zamanda, postmüharibə dövründə regionda sülh quruculuğunun təşəbbüskarı da Azərbaycandır. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra respublikamız qalib tərəf olmasına rəğmən, heç bir üstün şərt irəli sürmədən qarşı tərəfə 5 bəndlik sülh paketi ünvanladı. Ötən dövrdə tənzimləmə prosesinin 2025-ci il 8 avqust tarixində baş tutan Vaşinqton sammitinədək irəliləməsi məhz Azərbaycanın davamlı səyləri sayəsində mümkün oldu. Ağ Evdə Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə yekun sülh sazişinin paraflanması göstərdi ki, beynəlxalq birlik ölkəmizin sülh gündəliyini qəbul və təqdir edir.

Regionda artıq real sülh bərqərar olub və hazırda etimad quruculuğu istiqamətində addımlar atılır. O cümlədən sülhə sadiqlik nümayiş etdirən Azərbaycan öz ərazisindən Ermənistana tranzit daşımalarına imkan yaradıb, həmçinin bu ölkəyə strateji əhəmiyyətli enerji məhsullarının ixracına başlayıb.

Cənubi Qafqazın Avropa, Qara dəniz və Mərkəzi Asiya ilə əlaqələrinin genişlənməsi regional əməkdaşlığın və qarşılıqlı etimadın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Konfransda bildirildiyi kimi, bu prosesdə ticarət, infrastruktur, iqtisadi inkişaf və sərhədlərarası layihələr əsas istiqamətlərdən biri kimi çıxış edir. İsveçrənin Azərbaycan və Türkmənistandakı səfirliyinin Regional Əməkdaşlıq bölməsi rəhbərinin müavini Qay Bonvin Bakıda keçirilən beynəlxalq konfransda çıxışı zamanı regional əməkdaşlıqda respublikamızın roluna diqqət çəkib. Q.Bonvin bildirib ki, Cənubi Qafqazın coğrafi mövqeyi regionu Avropa, Qara dəniz və Mərkəzi Asiya arasında mühüm bağlantı məkanına çevirir. Azərbaycanın bu prosesdə mühüm rol oynadığını deyən diplomat ölkənin son 30 ildə keçdiyi inkişaf yolunun və regional əlaqələrin genişlənməsinin diqqətəlayiq olduğunu vurğulayıb.

Hazırda dünyada müşahidə edilən geoiqtisadi və geosiyasi kataklizmlər fonunda Azərbaycanın regional əməkdaşlığın mühüm seqmenti olan bağlantılar sahəsində önəmi daha da artıb. BMTMM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Azərbaycanın coğrafi mövqeyi və həyata keçirdiyi nəqliyyat layihələri onu Şimal və Cənub istiqamətlərində mövcud geosiyasi qarşıdurmalar arasında mühüm bağlantı məkanına çevirib. Bu baxımdan, Azərbaycanın təşəbbüsü ilə inkişaf etdirilən Orta Dəhlizin fəaliyyəti regionun nəqliyyat və iqtisadi əlaqələrinin genişləndirilməsində xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Azərbaycan bu müzakirələrdə həm coğrafi mövqeyi, həm də həyata keçirdiyi regional təşəbbüslərlə xüsusi yer tutur.

Azərbaycan son dərəcə əlverişli coğrafi mövqeyi ilə körpülər yaradan ölkə kimi çıxış edir. Lakin respublikamızın üstünlüyü yalnız coğrafiya ilə bağlı deyil. Bu üstünlük həm də ölkə ərazisində bütün beynəlxalq dəhlizlər boyunca son dərəcə müasir infrastruktur qurulması ilə şərtlənir. Avropa ilə Asiya arasında ən optimal və təhlükəsiz marşrutlar sayılan Şərq-Qərb, Şimal-Cənub dəhlizləri və Transxəzər (Orta Dəhliz) marşrutu məhz respublikamızın ərazisindən keçir. Bəhs olunan dəhlizlərdə Avrasiyanın müxtəlif dövlətləri təmsil olunurlar. Azərbaycan isə yeganə ölkədir ki, hər üç marşrutun fəal üzvüdür və onların inkişafına müstəsna töhfələr verir.



### Azərbaycan-Mərkəzi Asiya: Vahid siyasi və iqtisadi məkan

Son vaxtlarda Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi bütün Avrasiya coğrafiyası üçün böyük önəm daşıyır. Təsadüfi deyildir ki, beynəlxalq konfransda Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında starteji tərəfdaşlıq münasibətlərinin daha üst səviyyəyə yüksəldilməsi və bu proseslərin regional inkişafa mümkün təsirləri ilə bağlı geniş müzakirələr aparılıb. "Azərbaycan müstəqil xarici siyasət yürüdür, eyni zamanda, Mərkəzi Asiya ölkələri ilə inteqrasiyanı və əməkdaşlığı dərinləşdirir. Ölkənin regional proseslərdə artan rolu onun Avrasiyanın mühüm geosiyasi və geoiqtisadi aktorlarından birinə çevrildiyini göstərir". Bu fikirləri Yeni Avrasiya Observatoriyasının (ONE) həmtəsisçisi, Mərkəzi Asiya və Rusiyanın Asiya siyasəti üzrə eksperti Mişel Leviston beynəlxalq konfransda çıxışı zamanı deyib.

O, Azərbaycanın regiondakı həlledici roluna diqqət çəkib. "Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Xəzər dənizi vasitəsilə ixracı artırmaq məqsədilə Aktau və Kurık limanlarının inkişafına xüsusi diqqət yetirir. Özbəkistan isə Azərbaycanın ən fəal xarici tərəfdaşlarından biridir. Tərəflər 2024-cü ildə müttəfiqlik sazişi imzalayıblar. Avqust ayında isə ölkələr arasında əbədi dostluq sazişi bağlanıb. Bundan əlavə, Azərbaycan, Qazaxıstan və Özbəkistan yaşıl enerji dəhlizinin yaradılması istiqamətində əməkdaşlıq edirlər", - deyə ekspert bildirib.

Azərbaycanın milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursunda Mərkəzi Asiyada yerləşən dövlətlərlə əlaqələrin genişləndirlməsi xətti xüsusi yer tutur. Əvvəllər ölkəmizlə bu region dövlətləri arasında münasibətlər ikitərəfli formatlarda və ayrı-ayrı beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdirilirdi. 2025-ci ilin noyabr ayında isə Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə quruma tamhüquqlu üzv qəbul edilib. Bundan başqa, respublikamızın Amerika Birləşmiş Ştatları ilə Mərkəzi Asiya dövlətlərini birləşdirən C5+1 formatında yer alması perspektivləri də kifayət qədər böyükdür. Artıq bu platformanın Azərbaycan vasitəsilə C6+1 formatında genişləndirilməsi ilə bağlı müzakirələr intensivləşib.

Bütün bunlar Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında əlaqələrin dərinləşməsinin həm region və Avrasiya məkanı, həm də daha geniş çoğrafiya üçün nə qədər böyük önəm daşıdığını aydın şəkildə göstərir. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən bildirib ki, Mərkəzi Asiya Azərbaycanla vahid bir iqtisadi və siyasi məkanda birləşir. Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurası artlq Azərbaycan da daxil üzv dövlətlərin gələcək koordinasiyalı fəaliyyətləri üçün müstəsna önəm daşıyan bir qurumdur. Mərkəzi Asiya + formatında qarşılıqlı fəaliyyət güclənir və region nüfuzlu beynəlxalq forumlarda vahid mövqedən çıxış edir. Azərbaycanın bu formata qoşulması ilə regionun qlobal birlikdə səsinin daha da əhəmiyyətli olacağına böyük əminlik var.

Qeyd edək ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bu ölkələri çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Bu əlaqələr əsrlər boyunca qorunub saxlanıb və daha da zənginləşdirilib. Əlamətdar haldır ki, bu gün tarixdən gələn ənənələrin yeni reallıqlara uyğun davam etdirilməsinə həm dövlətlər səviyyəsində güclü siyasi iradə göstərilir, həm də cəmiyyətlər, xalqlar buna böyük istək ortaya qoyurlar. Dövlət başçıları arasında yaranan səmimi münasibətlər, çoxsaylı mədəni tədbirlər, intensivləşən qarşılıqlı səfərlər bunun əyani təsdiqidir. Prezident İlham Əliyev 2025-ci il 16 noyabr tarixində baş tutan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə söylədiyi nitqində maraqlı statistika təqdim edərək bildirib: "Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım ölkəmizə 23 dəfə səfər ediblər".

Bu statistika özlüyündə Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında siyasi əlaqələrin nə qədər yüksək səviyyədə olmasının göstəricisidir. Dövlət başçıları arasında yaranan xoş münasibətlər Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalanması ilə daha da genişlənir. Həmçinin mütəmadi olaraq mədəniyyət günləri, sərgilər, konsertlər keçirilir ki, bu da xalqlarımızı və cəmiyyətlərimizi bir-birinə daha da yaxınlaşdırır. Eyni zamanda, iqtisadi əlaqələr dərinləşir, qarşılıqlı ticarət dövriyyəsi, investisiya qoyuluşu sürətlə artır, birgə layihələrin icrasında yaxşı təcrübə qazanılıb.

### Azərbaycan bağlantılar yaradan ölkədir

Azərbaycanın nəqliyyat-logistika imkanlarını artıraraq Avrasiyanın mühüm nəqliyyat hablarından birinə çevrilməsindən bəhs edərkən ölkəmizin liderliyi ilə inşa olunan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun və Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının önəmini ayrıca qeyd edə bilərik. Şərq-Qərb marşrutunun və Orta Dəhlizin funksionallığının artmasında mühüm rol oynayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti məhz Azərbaycanın moderatorluğu ilə inşa olunaraq 2017-ci ildə istifadəyə verilib. Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanın dəmir yolları şəbəkələrinin birləşdirilməsini təmin edib. Layihəyə əsasən, polad magistralla növbəti illərdə 17 milyon ton və daha çox yük daşınması nəzərdə tutulur. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirilməsi üzrə layihə də artıq yekunlaşıb.

Beynəlxalq dəhlizlərin potensialı dəmir yolları ilə yanaşı, limanların yükaşırma qabiliyyəti ilə də sıx bağlıdır. Bu baxımdan, Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Bakı Beynəlxalq Ticarət Limanının birinci fazasının illik yükdaşıma qabiliyyəti 15 milyon tondur. Genişləndirmə layihəsi çərçivəsində limanın avtomatlaşdırılması nəticəsində buradan keçən tranzit yüklərin daha sürətli ötürülməsinə imkan yaranacaq.

*Mübariz ABDULLAYEV*

# Dövlət büdcəsinin gəlirlərində yüksək artım

## Büdcədə 3,5 milyard manatdan çox profisit yaranıb

2026-cı ilin yanvar-avqust aylarında dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Dövlət büdcəsinin gəlirləri 26 milyard 486,5 milyon manat təşkil edib ki, bu da proqnozu 780,2 milyon manat və ya 3 faiz üstələyib. Dövlət büdcəsinin gəlirlərində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 12 milyard 619,1 milyon manat təşkil edərək proqnozdan 900,1 milyon manat və ya 7,7 faiz çox olub. Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 37,7 milyon manat olmaqla proqnozu 7,3 milyon manat və ya 23,8 faiz çox üstələyib. Sair daxilolmalar isə 462,5 milyon manat təşkil edərək proqnozdan 77,1 milyon manat və ya 20 faiz çox , Dövlət Neft Fondundan transfert isə 8 559,0 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 4 326,9 milyon manat, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar isə 481,3 milyon manat icra olunub.

Qeyd edilən dövrdə büdcədə fiskal yığımların əsas mənbəyi Neft Fondunun transfertləri nəzərə alınmadan əsas etibarilə qeyri-neft gəlirləri təşkil edib. Belə ki, təkcə vergilərin 9,5 milyarda manata yaxını qeyri-neft-qaz sektorundan daxilolmalardır. Bu sahə üzrə büdcəyə proqnozdan əlavə 281,7 milyon manat vəsait ödənilib ki, bu da 2025-ci ilin müvafiq dövrünə nisbətən 12,3 faiz çoxdur.

### İcmal büdcədə 6 milyard manata yaxın profisit

Yanvar-avqust ayları ərzində dövlət büdcəsinin xərcləri 22 milyard 770,6 milyon manat məbləğində icra edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 462,5 milyon manat və ya 2.1 faiz çoxdur. İcmal büdcənin gəlirləri isə 32 milyard 799,6 milyon manat, xərcləri isə 26 milyard 967,5 milyon manat məbləğində icra edilib. Yeri gəlmişkən, bu dövrdə xəzinə əməliyyatlarına dair müraciətlərin qanunvericiliyin tələblərinə uyğun, sürətli və xətasız icrası təmin edilib, xəzinədarlıq orqanları tərəfindən 864 mindən çox ödəniş tapşırığı vaxtında və tam şəkildə icra edilib.

Dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə ümumilikdə 224 milyon 195,4 min manat məbləğində vəsait geri qaytarılıb. Həmin vəsaitlər fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə sahəsində aldıqları mallara, mədəniyyət (teatr, kino, muzey, konsert), tibbi xidmətlərə, o cümlədən işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərinə, habelə əcnəbilər tərəfindən ölkə ərazisində istehsal və kommersiya məqsədi daşımayan malların alınmasına ödənilmiş ƏDV-nin qaytarılmasına aiddir. Bununla yanaşı, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsi, həmçinin artıq ödənilmiş digər vergilər, dövlət rüsumu, faizlər və maliyyə sanksiyaları da geri qaytarılıb.

### Büdcə xərcləri 40 milyard manatı üstələyəcək

Yenilənmiş proqnozlara görə, 2026-cı il dövlət büdcəsinin xərcləri 40 milyard 862,6 milyon manat səviyyəsində olacaq. Bu, təsdiq olunmuş göstəriciyə nisbətən 2 faiz azdır. Ümumilikdə, 2026-cı il gözlənilən dövlət büdcəsinin xərclərinin strukturunda daxil olan cari xərclərə ümumi xərclərin 60,5 faizi həcmində və ya 24 milyard 713,1 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 488,5 milyon manat və ya 1,9 faiz az), əsaslı xərclərə ümumi xərclərin 33,5 faizi həcmində və ya 13 milyard 691,8 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 352,6 milyon manat və ya 2,5 faiz az) olacağı ehtimal edilir. Cəmi xərclərdə dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 6 faizi həcmində və ya 2 milyard 457,6 milyon manat (təsdiq olunmuş göstərici səviyyəsində) vəsait yönəldiləcək.




### Xarici borc azalır

2026-cı ilin dövlət büdcəsində xarici dövlət borcu üzrə 1 milyard 400 milyon manat, daxili dövlət borcu üzrə isə 1 milyard 057,6 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Dövlət büdcəsinin xərcləri funksional təsnifata uyğun olaraq ümumi dövlət xidmətləri əvvəlki göstərici - 5 milyard 518 milyon manata qarşı 5 milyard 462,8 milyon manat və ya 55,2 milyon manat az gözlənilir. Sosial müdafiə və sosial təminat xərcləri isə təsdiq olunmuş 4 milyard 873 milyon manata qarşı 4 milyard 824,2 milyon manat və ya 48,7 milyon manat az, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri təsdiq olunmuş 632,1 milyon manata qarşı 625,8 milyon manat və ya 6,3 milyon manat az, məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq xərcləri təsdiq olunmuş 3 milyard 336,3 milyon manata qarşı 3 milyard 286,2 milyon manat və ya 50 milyon manat az nəzərdə tutulur. Müdafiə və milli təhlükəsizlik xərcləri isə təsdiq olunmuş 8 milyard 717,6 milyon manata qarşı 8 milyard 562,8 milyon manat və ya 154,7 milyon manat az, səhiyyə xərcləri təsdiq olunmuş 2 milyard 24,3 milyon manata qarşı 1 milyard 987,3 milyon manat və ya 37,1 milyon manat az, kənd təsərrüfatı xərcləri təsdiq olunmuş 1 milyard 226,5 milyon manata qarşı 1 milyard 202 milyon manat və ya 24,5 milyon manat az gözlənilir. İqtisadi fəaliyyət (dövlət əsaslı vəsait qoyuluşu, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və digər xərclər) xərclərinin təsdiq olunmuş 7 milyard 856,6 milyon manata qarşı 7 milyard 699,5 milyon manat və ya 157,1 milyon manat, təhsil xərclərinin təsdiq olunmuş 5 milyard 16,4 milyon manata qarşı 4 milyard 880,1 milyon manat və ya 136,3 milyon manat az olacağı proqnozlaşdırılır.

### Yenilənmiş büdcə göstəriciləri

Büdcə göstəricilrəi ölkədə maliyyə-fiskal siyasətin uğurlu nəticələrini göstərir. İlin əvvəlindən müşahidə edilən bu müsbət meyilləri nəzərə alan Maliyyə Nazirliyi bir neçə gün əvvəl 2026-cı il üzrə yenilənmiş makroiqtisadi proqnozları açıqlayıb ki, yeni ssenarilər fonunda dövlət büdcəsinin gəlirlərində ilin əvvəlində tərtib edilən proqnozlarla nisbətdə daha çox artım gözlənilir. Yeni gözləntilərə əsasən, 2026-cı ilin sonuna dövlət büdcəsinin gəlirlərinin 39 milyard 365 milyon manat təşkil edəcəyi gözlənilir. Büdcə gəlirlərinin 43,4 faizi və ya 17 milyard 85 milyon manatı neft-qaz sektorunun, 56,6 faizi və ya 22 milyard 280 milyon manatı isə qeyri-neft-qaz sektorunun payına düşür. İlin əvvəlində təsdiq olunmuş göstəricilərlə müqayisədə neft-qaz sektoru üzrə gəlirlərdə 650 milyon manat və 4 faiz, qeyri-neft-qaz sektoru üzrə gəlirlərdə isə 106 milyon manat və ya 0,5 faiz artım gözlənilir. Dövlət büdcəsinin gözlənilən gəlirlərinin 17 milyard 760 milyon manatı və ya 45,1 faizi vergilər və rüsumlar üzrə daxilolmaların, 6 milyard 762 milyon manatı və ya 17,2 faizi gömrük rüsumları və idxala görə vergi daxilolmalarının, 12 milyard 835 milyon manatı və ya 32,6 faizi Dövlət Neft Fondundan transfertin, 1 milyard 21 milyon manatı və ya 2,6 faizi büdcə təşkilatlarının büdcədənkənar gəlirlərinin, 987 milyon manatı və ya 2,5 faizi sair gəlirlərin payına düşəcək. Vergi və rüsumlar üzrə daxilolmaların məbləği cəmi 17 milyard 760 milyon manat gözlənilir ki, bu da cari ilin təsdiq olunmuş göstəricisinə nisbətən 850 milyon manat və yaxud 5 faiz çoxdur. Qeyd olunan vəsaitin 4 milyard 250 milyon manatı və ya 23,9 faizi neft-qaz sektorunun, 13 milyard 510 milyon manatı və ya 76,1 faizi isə qeyri-neft-qaz sektorunun payına düşəcək. Dövlət Neft Fondundan transfert 12 milyard 835 milyon manat gözlənilir.




### Kəsir 18,8 faizdən 17,5 faizə düşəcək

Büdcə kəsirinin 2026-cı ilin sonuna 1 milyard 497,6 milyon məbləğində olacağı gözlənilir. Kəsirin artımının maliyyələşdirilməsi daxili borclanmadan cəlb olunan vəsait, vahid xəzinə hesabının sərbəst qalığı və məqsədli büdcə fondlarının vəsaitinin qalığı hesabına təmin edilməsi nəzərdə tutulub. Kəsir cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 1,1 faiz olacaq, eyni zamanda, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti 2026-cı ilin əvvəlindəki 18,8 faiz proqnoza qarşı mövcud gözləntilər əsasında ilin sonunda 17,5 səviyyəsində olacağı gözlənilir.

*E.CƏFƏRLİ*

# 2030-cu ilə qədər 17 hədəf

## Asiya İnkişaf Bankı Xəzər, Qara dəniz və CAREC regionunda nəqliyyat dəhlizlərinə çoxmilyardlıq sərmayə yatıracaq

Asiya İnkişaf Bankı (AİB) çoxistiqamətli maliyyələşmə proqramı çərçivəsində investisiyaları hazırda yeni təşəbbüslərə - logistika və nəqliyyat layihələrinə, limanlara, gəmiçiliyə və multimodal logistik infrastrukturların modernləşməsinə yönəltmək niyyətindədir. Bankın baş nəqliyyat mütəxəssisi Adrian Sammons Bakıda keçirilən "Black and Caspian Freight Forum 2026: Corridors, Infrastructure, Investments" adlı 5-ci Beynəlxalq Konfrans və Sərgisində bildirib ki, Mərkəzi Asiya Regional Əməkdaşlıq (CAREC) Proqramı üzrə yeni layihənin əsas məqsədi maliyyələşdirilməsi iqlimə dayanıqlı limanları, logistikanı və gəmiçilik sektorlarının imkanlarını artırmasıdır. Layihə Xəzər, Qara dəniz və CAREC regionunda dayanıqlı ticarət koridorlarının qurulmasını və rəqəmsallaşdırılmasını nəzərdə tutur.

### 10 milyard dollardan çox investisiya

Bankın prezidenti Masato Kanda bir müddət əvvəl AİB-in Səmərqənddə keçirilən 59-cu İllik Toplantısında bəyan edib ki, Asiya Bankı 2030-cu ilə qədər Cənubi Qafqaz və Mərkəzi Asiyada regional bağlılığa, təmiz enerjiyə, rəqəmsal transformasiyaya və inklüziv infrastruktura 10 milyard dollardan çox sərmayə yatırmağı planlaşdırır. Yenilənmiş tərəfdaşlıq proqramına əsasən, bu region ölkələrində yeni texnologiyaların tətbiqini və rəqəmsal iqtisadiyyatı təşviq edən layihələrin icrası və rəqəmsal transformasiyanın dərinləşməsi üçün inklüziv infrastrukturlara 10 milyard dollardan çox sərmayə yatırılacaq.

Qeyd edək ki, "Özəl Kapitalın Cəlb Edilməsi göstəricisinin hazırlanması və tətbiqinə dəstək" layihəsi çərçivəsində ilk maliyyə tranşı təsdiqlənib və icra olunacaq layihələrin maliyyə-investisiya dəyəri 100 milyon dollar artıqdır. Növbəti layihələrin dəyəri isə AİB Qrupunun növbəti qərarları zamanı bəlli olacaq. Ümumilikdə, AİB-in Cənubi Qafqaz, Asiya və Sakit okean regionunda 2030-cu ilə qədər 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olmaq üçün böyük hədəf prinsipləri nəzərdə tutulub.

### "Maneəsiz Rəqəmsal Dəhliz"in maliyyə təchizatçısı

Asiya Bankı Orta Dəhlizin maliyyə donoru kimi də aktiv təchizatçı olacaq. Regional əməkdaşlığın genişləndirilməsində Orta Dəhlizin strateji əhəmiyyətinin artdığını diqqətə çatdıran A.Sammons qeyd edib ki, bu yolun əhəmiyyəti son dövrlərdə daha da artırır. Bank həmin dəhlizin altmodeli olan vahid multimodal xidmət - Rəqəmsal Ticarət Koridorunun (Digital Trade Corridor) yaradılmasını maliyyələşdirib ki, bu da "Avrasiya Nəqliyyat Marşrutu"nun rəqəmsallaşmasında və "Maneəsiz Rəqəmsal Dəhliz" sisteminin qurulmasında mühüm rol oynamaqdadır. Asiya Bankının kapital portfelinin böyük bir hissəsinin Çinin maliyyə donorluğu əsasında formalaşmasını nəzərə alsaq "Bir kəmər, bir yol"un müəllifi kimi rəsmi Pekinin Orta Dəhlizdəki rəqəmsal infrastrukturların müasirləşməsinə böyük marağını başa düşmək mümkündür. Bu baxımdan AİB-in dəhlizi üzərində yerləşən ölkələrə, o cümlədən Azərbaycana dəmir yollarının rəqəmsallaşmasına dəstəyi də prioritet təşkil edir.

A.Sammons yeni maliyyələşdirmə tranşının Xəzər, Qara dəniz və CAREC regionunda strateji cəhətdən rəqabətədavamlı güclü nəqliyyat tranzitlərinin formalaşacağına əmindir. Yeni infrastrukturların qurulması real ticarət axınlarına cavab verən tranzitləri formalaşdıracaq. Eyni zamanda, icra edilən layihələr nəqliyyat koridorundakı kritik problemləri, xüsusən də müəyyən edilmiş maneələri - səmərəsiz sərhəd keçidləri, dəmir yolu, avtomobil yolu və ya limandakı ötürücülük qabiliyyəti məhdudiyyətləri, zəif multimodal əlaqələri aradan qaldıracaq. Həmçinin, rəqəmsallaşma şəffaf idarəetməni gücləndirəcək, səmərəli gömrük prosedurları sayəsində qurumlar arasında koordinasiya artacaq.

Ümumilikdə, Asiya Bankının yeni investisiya layihəsi Azərbaycan da daxil olmaqla böyük bir coğrafiyada nəqliyyat-logistika axıcılığını gücləndirəcək, iqtisadi cəhətdən əsaslandırılmış geniş ticarət keçidlərini təmin edəcək.

### CAREC proqramı üzrə maliyyə dəstəyi göstəriləcək

Masato Kanda bildirib ki, Asiya-Sakit okean və Xəzər regionu ölkələrinin dayanıqlı və inklüziv artımına kömək edən transsərhəd əlaqələrin gücləndirilməsi perspektiv fəaliyyət planının əsas prinsiplərindən biridir. Müasir sarsıntılar sərhədləri aşaraq enerji bazarları, təchizat zəncirləri və rəqəmsal şəbəkələr vasitəsilə sürətlə ötürülür və bir sıra icmalara zərbə vurur. Bu problemlərin həlli milli sərhədləri aşan əlaqələndirilmiş regional tədbirlər tələb edir. Ona görə də, AİB yeni baxış strategiyası çərçivəsində təkcə Asiya regionu ölkələrini deyil, Cənubi Qafqaz da daxil olmaqla böyük bir coğrafiyada inkişaf arxitekturasının qurulmasına davamlı dəstək verməyə çalışacaq. Eləcə də, Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı vasitəsilə bölgədə davamlı inkişafı təmin edəcək digər layihələrin maliyyələşdirilməsi nəzərdə tutulur.




CAREC proqramı çərçivəsində 2030-cu ilə qədər inteqrasiya olunmuş ticarət gündəliyinin ikinci mərhələsi olan "Rəqəmsal ticarətin sürətləndirilməsi" layihəsinin həyata keçirilməsi üçün texniki şərtlər razalaşdırılıb və təsdiqlənib. Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Çin, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edəcək layihəni AİB-in yaxın tərəfdaşı olan Cənubi Koreyanın Elektron Asiya və Bilik Tərəfdaşlığı Fondu maliyyələşdirəcək. Layihə ticarət sənədlərinin rəqəmsallaşdırılmasını, rəqəmsal ticarət üzrə model qaydalarını, prinsip və standartlarını, sərhədlərarası məlumat axınını idarəetmə sisteminin və ödənişlərin təşviqini nəzərdə tutur.

### Layihə Azərbaycan- CARES ticari-logistik mübadiləsini genişləndirəcək

Yeni layihənin icrası e-ticarət qaydalarının asanlaşması sayəsində böyük bir coğrafiyada rəqəmsal habın formalaşmasını təmin etməklə Azərbaycanın CARES ölkələri ilə ticari-logistik mübadiləsini də genişləndirəcək. Xatırladaq ki, 2024-cü ildə Azərbaycan ilə CAREC-ə üzv dövlətlər arasında ticarət dövriyyəsi 5 milyard dolları ötüb və CAREC ölkələrinin Azərbaycanın ümumi xarici ticarətində payı 12 faizə çatıb. Eyni zamanda, respublikamız təşkilata üzv olan ölkələrin iqtisadiyyatına birbaşa 4,2 milyard dəyərində investisiya yatırıb, qarşı tərəfin də sərmayələrində artım baş verib. Hədəflər isə böyükdür və daha böyük ticarət dövriyyələrinin əldə olunmasıdır. Həmin hədəflərin reallaşması sayəsində Azərbaycan- CAREC ölkələri arasında ticarət, investisiya imkanları da xeyli artmış olacaq.

*E.CƏFƏRLİ*

# YAP xalqa layiqli xidmət nümunəsi yaradıb






Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Samux rayon təşkilatının IX konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, 2021-ci il martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayından ötən dövr ərzində partiyanın fəaliyyətində yeni mərhələ başlanıb, təşkilati işin daha da təkmilləşdirilməsi və ərazi partiya təşkilatlarının fəaliyyətinin səmərəli qurulması istiqamətində mühüm addımlar atılıb. Yeni çağırışlar nəzərə alınmaqla YAP Samux rayon təşkilatının fəaliyyəti də ardıcıl və məqsədyönlü şəkildə təşkil edilib. Qeyd edilib ki, rayon təşkilatının fəaliyyətində daha çevik təşkilati yanaşmaların tətbiqi, gənclərin və qadınların ictimai-siyasi fəallığının artırılması, eləcə də ərazi partiya təşkilatları ilə işin və siyasi maarifləndirmənin sistemli şəkildə aparılması diqqət mərkəzində saxlanılıb.

Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev YAP-ın ölkənin ictimai-siyasi həyatında səmərəli fəaliyyətini qeyd edərək, partiyanın qarşıya qoyduğu məqsəd və vəzifələrin həyata keçirilməsi istiqamətində görülən işləri və məqsədyönlü tədbirləri diqqətə çatdırıb. O, həmçinin Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunan sosial-iqtisadi nailiyyətlərdən, regionların davamlı inkişafına yönəlmiş layihələrdən bəhs edib. RİH başçısı, həmçinin Samux rayonunda həyata keçirilən quruculuq və abadlıq işləri, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində görülən tədbirləri vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mübariz Qurbanlı çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm rolu, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi misilsiz nailiyyətlər, ölkəmizdə həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq işləri və yeni dövrün hədəfləri barədə ətraflı məlumat verib.

Konfransda çıxış edən Sərkar kənd ərazi partiya təşkilatının üzvü Günel Əhmədova, Qədili kənd ərazi partiya təşkilatının üzvü Röyal Əlizadə, Qarabağlı kənd ərazi partiya təşkilatının sədri Bəxtiyar Məmmədov Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında fəal rolunu, partiyanın qarşıya qoyduğu məqsəd və vəzifələrin həyata keçirilməsində ərazi partiya təşkilatlarının fəaliyyətinin əhəmiyyətini vurğulayıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov partiyanın Samux rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatlarında işin səmərəli təşkili və partiya üzvlərinin ictimai fəallığının artırılması istiqamətində görülən işlərdən danışıb. O, rayon təşkilatının qarşısında qoyulan vəzifələrin icrası istiqamətində həyata keçirdiyi işlərdən danışaraq, əldə olunan nəticələrin əhəmiyyətini qeyd edib.

Konfransda YAP Samux rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Ümumxalq partiyası bütün sınaqlardan şərəflə çıxıb






Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Qax rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Qax rayon təşkilatının sədri Natiq Allahverdiyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, ötən dövrdə rayon təşkilatının fəaliyyəti Yeni Azərbaycan Partiyasının qarşıya qoyduğu vəzifələrə uyğun qurulub: "Ərazi partiya təşkilatları ilə işin səmərəliliyinin artırılması, üzvlərin ictimai-siyasi fəallığının yüksəldilməsi, gənclərin və qadınların partiya sıralarında iştirakının genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Partiya fəalları qoyulan vəzifələrin icrasına öz töhfələrini verməkdədirlər".

Qax Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev bildirib ki, Yeni Azərbaycan Partiyası ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır və cəmiyyətin müxtəlif təbəqələrini öz ətrafında birləşdirib. O qeyd edib ki, Qax rayonunda da partiyanın yerli təşkilatı fəaliyyətini ardıcıl şəkildə quraraq ictimai-siyasi proseslərdə fəal iştirak edir. Bildirilib ki, rayonda həyata keçirilən sosial-iqtisadi layihələr, abadlıq-quruculuq işləri və əhalinin rifahının yüksəldilməsi istiqamətində görülən tədbirlər insanların gündəlik həyatına müsbət təsir göstərir. Elvin Paşayev YAP Qax rayon təşkilatının bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasında fəal iştirak edəcəyinə əminliyini ifadə edib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov bildirib ki, ümumxalq partiyası olan YAP bütün sınaqlardan şərəflə çıxıb. Yeni Azərbaycan Partiyası uzun illər ərzində ölkənin ictimai-siyasi həyatında özünəməxsus mövqeyini qoruyub saxlayaraq mühüm uğurlara imza atıb. Onun sözlərinə görə, partiyanın gücü yalnız çoxsaylı üzvlərə malik olması ilə deyil, eyni zamanda müxtəlif bölgələrdə fəaliyyət göstərən yerli təşkilatların səmərəli fəaliyyəti ilə də şərtlənir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xəqani Tağıyev çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilən VII qurultayı yeni mərhələdə fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirib. Bildirilib ki, qurultaydan sonra partiyanın strukturunun daha da təkmilləşdirilməsi, ərazi partiya təşkilatlarının fəaliyyətinin daha da gücləndirilməsi, üzvlərlə işin keyfiyyətinin yüksəldilməsi və müasir çağırışlara uyğun təşkilatlanma mexanizmlərinin tətbiqi istiqamətində mühüm tədbirlər görülüb.

"Səhiyyə işçiləri" ərazi partiya təşkilatının sədri Əfqan Babayev, Qax Rayon Heydər Əliyev Mərkəzinin direktoru Arzu Dunusova və Gənclərin İnkişaf və Karyera Mərkəzinin layihələr üzrə mütəxəssisi Elmir Həşimli görülən işlərin əhəmiyyətindən bəhs ediblər.

Konfransda YAP Qax rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Çoxşaxəli islahatlar Azərbaycanın yüksəlişinə xidmət edir






Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Xəzər rayon təşkilatının XIII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda hesabat məruzəsi ilə çıxış edən YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov bildirib ki, partiyanın VII qurultayından ötən müddət ərzində ərazi partiya təşkilatlarında fəaliyyətin gücləndirilməsi, üzvlərlə işin təkmilləşdirilməsi, partiya sıralarının genişləndirilməsi və ictimai-siyasi tədbirlərin keçirilməsi istiqamətində ardıcıl iş aparılıb. Bildirilib ki, YAP Xəzər rayon təşkilatı bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək üçün fəaliyyətini sistemli şəkildə davam etdirəcək.

N.Əhmədov vurğulayıb ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət Azərbaycanın hərtərəfli inkişafını təmin edib, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması isə xalqımızın çoxəsrlik tarixinin ən mühüm hadisələrindən biri kimi yadda qalıb. Onun sözlərinə görə, bu gün ölkəmizdə davamlı islahatlar həyata keçirilir və bu, Azərbaycanın yüksəlişinə xidmət edir.

Çıxış edən Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm rolundan danışıb. O, YAP Xəzər rayon təşkilatının rayonun ictimai həyatında fəal iştirak etdiyini, həyata keçirilən sosial və ictimai təşəbbüslərin əhəmiyyətini qeyd edib. E.Salahov təşkilatın şəhid ailələri, qazilər və digər həssas sosial qruplarla bağlı gördüyü işlərin təqdirəlayiq olduğunu deyib və qarşıdakı dövrdə də əməkdaşlığın uğurla davam etdirilməsinin vacibliyini vurğulayıb.

YAP İdarə Heyətinin üzvü Rauf Əliyev çıxışında Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. O, Azərbaycanın son illərdə əldə etdiyi mühüm siyasi, iqtisadi və hərbi nailiyyətlərə toxunaraq Vətən müharibəsində qazanılan tarixi Zəfərin və ölkəmizin ərazi bütövlüyünün bərpasının xüsusi əhəmiyyət daşıdığını qeyd edib. R.Əliyev YAP-ın yerli təşkilatlarının qarşısında duran əsas vəzifələrdən, partiya üzvlərinin fəallığının artırılması və vətəndaşlarla əlaqələrin daha da gücləndirilməsinin vacibliyindən danışıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rəfael Gülməmmədov isə çıxışında yerli təşkilatların partiyanın fəaliyyətində mühüm rol oynadığını qeyd edib. O, ərazi partiya təşkilatlarında işin düzgün və sistemli qurulmasının, partiya üzvləri ilə əlaqələrin möhkəmləndirilməsinin, təşkilati intizamın və hesabatlılığın gücləndirilməsinin vacibliyini bildirib.

Daha sonra Əfqan Əliyev adına 125 nömrəli tam orta ümumtəhsil məktəbin direktoru, Məmməd Səid Ordubadi küçəsi 7 ərazi partiya təşkilatının sədri Zeynəb Əliyeva, Milli Məclis sədrinin birinci müavininin köməkçisi İsgəndər-Zadə Mustafayev çıxış ediblər.

Konfransda təşkilatın hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və YAP-ın VIII Qurultayına nümayəndələr seçilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub






Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Ağcabədi rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda məruzə ilə çıxış edən YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov bildirib ki, Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizin inkişaf edərək qabaqcıl dövlətlər sırasına çıxması, davamlı və dinamik inkişafa nail olmaqla dünyada yüksək nüfuz sahibinə çevrilməsində Yeni Azərbaycan Partiyasının müstəsna rolu var. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının bütün yerli təşkilatları öz işini Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarını rəhbər tutaraq Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasətinə uyğun həyata keçirir.

R.Əhmədov qeyd edib ki, hesabat dövrü ərzində YAP Ağcabədi rayon təşkilatının cəmiyyətin bütün sosial təbəqələrini əhatə edən çoxsaylı tədbir və görüşləri keçirilib.

Konfransda Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov çıxış edərək qeyd edib ki, müstəqilliyin ilk illərində ölkəmizi yaranmış ağır vəziyyətdən yalnız Heydər Əliyev kimi dahi bir şəxsiyyət qoruya bilərdi: "Bu səbəbdən Ulu Öndər Heydər Əliyev xalqının səsinə səs verdi və yeni bir siyasi partiyanı - Yeni Azərbaycan Partiyasını yaratdı. Bu partiyanın təsis olunması, sonrakı illərdə xalqın dəstəyi ilə hakimiyyətə gəlməsi nəticəsində Azərbaycan parçalanmaq təhlükəsindən xilas oldu, bugünkü inkişafın təməlləri qoyuldu. Hazırda müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, yeni-yeni uğurlara imza atır".

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən, sıralarında yüz minlərlə insanı birləşdirən Yeni Azərbaycan Partiyası bu gün yalnız Azərbaycanın deyil, həm də bütün Cənubi Qafqaz regionunun ən güclü və nüfuzlu siyasi təşkilatıdır. "Ulu Öndər ölkəmizi xaos və vətəndaş müharibəsindən qurtarmaqla, onun müstəqilliyini əbədi və dönməz etmək kimi çox şərəfli bir missiyanı uğurla həyata keçirib", - deyə T.Rzayev vurğulayıb.

Tədbirdə YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə çıxış edərək Azərbaycanın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirib. O, Yeni Azərbaycan Partiyasının bütün üzvlərinin Ulu Öndərin əbədiyaşar ideyaları ətrafında birləşdiyini qeyd edib. O, partiya üzvlərinin Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasətinin təbliğində mühüm rol oynadıqlarını diqqətə çatdırıb.

Daha sonra YAP Ağcabədi rayon təşkilatı Pedaqoji Kollec ərazi partiya təşkilatının sədri Rövşən Bayramov, şəhid ailəsinin üzvü Nəzakət Bəşirova, 3 saylı ərazi partiya təşkilat sədri Mətanət Quliyeva və Azərbaycan Dövlət Pedaqoji Universitetinin gənc müəllimi Səbuhi Quliyev çıxış ediblər.

Konfransda Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və partiyanın VIII Qurultayına nümayəndələr seçilib.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

# Çoxəsrlik dövlətçilik tariximizin yeni şanlı səhifələri yazılır




Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Şabran rayon təşkilatının X konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov hesabat məruzəsi ilə çıxış edib. O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə bu gün çoxəsrlik dövlətçilik tariximizin yeni şanlı səhifələrinin yazıldığını qeyd edib.

Mehdi Balabəyov YAP-ın keçdiyi zəngin və şərəfli inkişaf yolundan, partiyanın ölkənin ictimai-siyasi həyatındakı mühüm rolundan danışaraq qeyd edib ki, Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttə sadiq qalaraq fəaliyyətini uğurla davam etdirir. Bildirilib ki, YAP Şabran rayon təşkilatı da öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinə uyğun şəkildə quraraq qarşıya qoyulan vəzifələrin icrasında fəal iştirak edib.

Milli Məclisin deputatı Mahir Süleymanlı çıxışında deyib ki, Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan bu günə qədər ölkəmizin milli maraqlarını qətiyyətlə qoruyub. Onun sözlərinə görə, 1992-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın yaranması və qısa müddətdə hakimiyyətə gəlməsi Azərbaycanı sabitlik, inkişaf və quruculuq yoluna çıxardı: "Bu gün Yeni Azərbaycan Partiyası azərbaycançılıq ideologiyasının daşıyıcısı kimi milli birliyin qorunmasına da mühüm töhfələr verir".

Şabran rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Hüseyn İlyasov ötən dövrün ölkəmizin və Yeni Azərbaycan Partiyasının tarixində mühüm uğurlarla səciyyəvi olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması ölkəmizin ictimai-siyasi həyatında yeni mərhələ açıb, partiyanın ideoloji və ictimai-siyasi fəaliyyətinə güclü stimul verib.

Hüseyn İlyasov Şabran rayon İcra Hakimiyyəti ilə YAP Şabran rayon təşkilatı arasında qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu, partiya fəallarının şəhərdəki sosial-iqtisadi təşəbbüslərdə yaxından iştirak etdiyini vurğulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Orxan Bayramov çıxışında qeyd edib ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi, xalqımızın birliyi, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunub: "Bu gün azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri sürətlə davam etdirilir, şəhər və kəndlərimiz yenidən qurulur. Möhtəşəm nailiyyətlərin qazanılmasında Yeni Azərbaycan Partiyasının xüsusi rolu var".

Konfransda YAP Şabran rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və partiyanın VIII Qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Qalib və qüdrətli Azərbaycan reallığı




Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Daşkəsən rayon təşkilatının XI konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçiyev hesabat məruzəsi ilə çıxış edib. O, rayon təşkilatı tərəfindən həyata keçirilən işlər, ərazi partiya təşkilatlarının fəaliyyəti, təşkilati məsələlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, YAP Daşkəsən rayon təşkilatı qarşıya qoyulan vəzifələrin icrası istiqamətində ardıcıl fəaliyyət göstərib. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsinin və Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin, YAP-ın ideoloji prinsiplərinin təbliği istiqamətində müxtəlif tədbirlər keçirilib.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Orxan Abbasov çıxışında Azərbaycanın tərəqqi yolunda inamla irəlilədiyini, regionların inkişafının davamlı xarakter daşıdığını bildirib. O bildirib ki, Daşkəsən rayonunun sosial-iqtisadi inkişafı təmin edilib, abadlıq və quruculuq işlərinin genişləndirilməsi, eləcə də əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Orxan Abbasov YAP Daşkəsən rayon təşkilatının rayonda həyata keçirilən tədbirlərdə fəal iştirak etdiyini və qarşıya qoyulan vəzifələrin icrasına öz töhfəsini verdiyini diqqətə çatdırıb.

Milli Məclisin deputatı Kamran Bayramov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan dünyada sürətlə inkişaf edən ölkələrdən birinə çevrilib. Millət vəkili Azərbaycanın əldə etdiyi tarixi Zəfərdən sonra yeni tərəqqi mərhələsinin başlandığını, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinin həyata keçirildiyini vurğulayıb. O bildirib ki, bütün bunlar qalib və qüdrətli Azərbaycanın reallığıdır.

YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarının səmərəli fəaliyyətinin əhəmiyyətindən danışıb. O bildirib ki, partiya üzvləri arasında həmrəyliyin, qarşılıqlı əməkdaşlığın və ictimai fəallığın gücləndirilməsi mühüm önəm kəsb edir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov bildirib ki, Yeni Azərbaycan Partiyası Daşkəsən rayon təşkilatı hesabat dövründə fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun qurub. O, rayon təşkilatının partiya sıralarının genişləndirilməsi və üzvlərin ictimai fəallığının artırılması istiqamətində gördüyü işlərin əhəmiyyətini qeyd edib.

Partiya veteranı, Daşkəsən Rayon Ağsaqqallar Şurasının sədri Cavanşir Qocayev, "Mədəniyyət İşçiləri" ərazi partiya təşkilatının sədri Nailə Məmmədova çıxışlarında Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yolundan bəhs ediblər.

Konfransda YAP Daşkəsən rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları milli sərvətimizdir





Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Neftçala rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd edilib ki, ötən dövrdə rayon təşkilatı fəaliyyətini YAP-ın Proqram və Nizamnaməsinə, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə uyğun qurub. Təşkilati işin daha da təkmilləşdirilməsi, partiya sıralarının genişləndirilməsi, ideoloji-siyasi maarifləndirmə, şəhid ailələri və qazilərlə iş, müharibə veteranlarına diqqət, gənclərin və qadınların ictimai-siyasi fəallığının artırılması əsas istiqamətlər olub.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov bildirib ki, rayon təşkilatı müxtəlif dövrlərdə qarşıya qoyulan vəzifələrin icrasını layiqincə təmin edib, rayonun ictimai-siyasi həyatında fəal iştirak edib və partiyanın ideoloji prinsiplərinin təbliğinə mühüm töhfələr verib. Mirhəsən Seyidov təşkilatın bundan sonra da siyasi xəttə uyğun olaraq fəaliyyətini uğurla davam etdirəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Hikmət Babaoğlu bildirib ki, Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında formalaşıb və ötən dövr ərzində şərəfli yol keçib. Deputatın fikrincə, Heydər Əliyev ideyaları milli sərvətimizdir.  O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi nailiyyətlər əldə edib, Vətən müharibəsində qazanılan Zəfər, eləcə də ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyinin tam bərpası xalq-iqtidar birliyinin gücünü bir daha nümayiş etdirib. Deputat vurğulayıb ki, yerli təşkilatlar partiyanın cəmiyyətlə əlaqələrinin möhkəmləndirilməsində, üzvlərlə işin təşkilində və partiyanın ideoloji prinsiplərinin təbliğində mühüm rol oynayır.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov çıxışında Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra həyata keçirilən tədbirlərdən və qarşıda duran əsas vəzifələrdən danışıb. O bildirib ki, YAP Neftçala rayon təşkilatı hesabat dövründə təşkilati işin təkmilləşdirilməsi, ideoloji fəaliyyətin gücləndirilməsi və ictimai fəallığın artırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirib.

Partiya veteranı Valeh Tağıyev, "Neftçala şəhər-1" ərazi partiya təşkilatının sədri Vasif Əliyev, partiya fəalı, "Neftçala-Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftalıyeva Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı misilsiz nailiyyətlərdən, xalq-iqtidar birliyi və partiya üzvlərinin dövlətçilik maraqları naminə nümayiş etdirdikləri həmrəylikdən danışıblar.

Konfransda YAP Neftçala rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Azərbaycanın qarşısında yeni perspektivlər açılıb




Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Culfa rayon təşkilatının XI konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Culfa rayon təşkilatı sədri Qadir İbrahimov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti ölkəmizin gələcək inkişafının sarsılmaz bünövrəsini yaradıb: "Prezident İlham Əliyev bu siyasi kursu müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam etdirir. Azərbaycanın son illərdə qazandığı nailiyyətlər və güclənən beynəlxalq mövqeyi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması dövlət siyasətinin uğurlarını təcəssüm etdirir".

Onun sözlərinə görə, YAP Ulu Öndərin xalqımıza dəyərli siyasi mirasıdır: "2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsi partiyanın fəaliyyətinə yeni dinamizm gətirib".

Culfa Rayon İcra Hakimiyyəti başçısı Naim Cahidzadə bildirib ki, müasir Azərbaycan Ulu Öndərin əbədiyaşar ideyalarının təntənəsidir: "Bu gün Azərbaycan yalnız regionda deyil, beynəlxalq miqyasda da söz sahibi olan nüfuzlu dövlətdir. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən müvəffəqiyyətlər ölkəmizin qarşısında yeni perspektivlər açıb".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva bildirib ki, Prezident İlham Əliyevin siyasi kursu Azərbaycanın misilsiz uğurlar qazanmasını təmin edib. O, "Ölkəmizin iqtisadi qüdrətinin artması, beynəlxalq nüfuzunun yüksəlməsi, müdafiə qabiliyyətinin möhkəmlənməsi və ərazi bütövlüyünün bərpa olunması bu siyasətin ən mühüm nəticələrindəndir", - deyə qeyd edib.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə bildirib ki, Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra partiyanın fəaliyyətində yeni mərhələ başlanıb. Vurğulanıb ki, müasir dövrün tələblərinə uyğun olaraq partiya üzvlərinin fəallığının artırılması, gənclərin və qadınların ictimai proseslərdə daha aktiv iştirakı istiqamətində mühüm addımlar atılıb: "Bu gün rayon təşkilatlarının üzərinə də böyük məsuliyyət düşür. Partiyanın ümumi siyasi xəttinin yerlərdə uğurla həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır".

YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsi müdirinin müavini Asif İmaməliyev çıxışında Yeni Azərbaycan Partiyasının fəaliyyətinin Azərbaycanın müasir inkişaf tarixinin mühüm səhifələrindən birini təşkil etdiyini diqqətə çatdırıb. O, partiyanın ölkənin ictimai-siyasi həyatında aparıcı rolunun və qarşıya qoyulan məqsədlərin həyata keçirilməsində ardıcıl fəaliyyətinin əhəmiyyətini vurğulayıb.

Partiya veteranı, Culfa Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri Hüseyn Şəkərəliyev, "Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi" MMC-nin Culfa rayon sektoru ərazi partiya təşkilatının sədri Günel Məmmədova YAP-ın bundan sonra da Azərbaycanın inkişafına və qarşıya qoyulan yeni hədəflərin reallaşdırılmasına layiqli töhfələr verəcəklərinə əminliklərini ifadə ediblər.

Konfransda YAP Culfa rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## YAP siyasi sistemin aparıcı qüvvəsidir







Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Ordubad rayon təşkilatının XIII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Ordubad rayon təşkilatının sədri Ehtibar İsmayılov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmiz dünyanın ən nüfuzlu ölkələrindən birinə çevrilib.

E.İsmayılov qeyd edib ki, ötən müddət ərzində YAP Ordubad rayon təşkilatı qarşıya qoyulan vəzifələrin icrası istiqamətində fəaliyyətini ardıcıl olaraq davam etdirib.

Konfransda Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Nurlan Hacıyev çıxış edərək Azərbaycanın əldə etdiyi nailiyyətlərdən bəhs edib. O, Yeni Azərbaycan Partiyasının Azərbaycanın davamlı inkişafının təmin edilməsində və siyasi sistemin möhkəmləndirilməsində mühüm rol oynadığını vurğulayıb.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə çıxışında Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasının tarixi əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, qalib Azərbaycan regionda yeni reallıqlar yaradıb. V.Rəhimzadə bu tarixi nailiyyətin Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsi olduğunu diqqətə çatdırıb.

Daha sonra YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsi müdirinin müavini Asif İmaməliyev çıxış edərək Yeni Azərbaycan Partiyasının Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rolundan bəhs edib, partiyanın ölkənin inkişafına verdiyi töhfələri diqqətə çatdırıb. O vurğulayıb ki, bu gün sıralarında 700 mindən çox üzvü birləşdirən YAP cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi çıxış edir: “Qarşıya qoyulan məqsədlərin reallaşdırılmasında yerli təşkilatların fəaliyyəti də mühüm əhəmiyyət daşıyır”.

Ordubad şəhər 1 nömrəli tam orta məktəbin direktoru, Azərbaycanın Əməkdar müəllimi Könül İsmayılova və gənc fəal Rəvanə Seyidova gənc nəslin ictimai-siyasi proseslərə cəlb olunmasının, onların təşəbbüskarlığının dəstəklənməsinin önəmindən bəhs ediblər.

Konfransda YAP Ordubad rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

## İnkişafın Azərbaycan nümunəsi inkaredilməz reallıqdır







Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Göygöl rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyası bu gün ölkənin aparıcı siyasi qüvvəsi kimi fəaliyyətini uğurla davam etdirir. V.İsayev rayon təşkilatının ötən dövr ərzində gördüyü işlər, rayonda həyata keçirilən ictimai-siyasi tədbirlər və partiya üzvlərinin fəal iştirakı barədə məlumat verib.

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov çıxışında Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi-siyasi zərurətdən irəli gəldiyini, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə partiyanın qısa müddətdə geniş ictimai dəstək qazandığını və Azərbaycanın siyasi həyatında aparıcı qüvvəyə çevrildiyini diqqətə çatdırıb. O, Yeni Azərbaycan Partiyasının bir çox nailiyyətlərə imza atdığını bildirib, eləcə də Göygöl rayonunun inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edərək bu proseslərdə partiya üzvlərinin aktiv rolundan danışıb.

Çıxış edən Milli Məclisin deputatı Kamran Bayramov bildirib ki, müasir Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin ölkənin inkişafını daha da sürətləndirdiyini, Azərbaycanın beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdiyini deyib. Deputat qeyd edib ki, inkişafın Azərbaycan nümunəsi inkaredilməz reallıqdır.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov isə partiyanın müasir dövrdə fəaliyyət istiqamətlərinə toxunaraq dövlətçilik ənənələrinin qorunması, milli həmrəyliyin və ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən danışıb, Yeni Azərbaycan Partiyasının xalqa xidmət nümunəsi ortaya qoyduğunu diqqətə çatdırıb.

Tədbirdə YAP Gənclər Birliyinin üzvü Fərid Dünyamalıyev, YAP Göygöl rayon təşkilatı “Musiqi məktəbii” ərazi partiya təşkilatının sədri Nuranə Quliyeva və təşkilatın veteran üzvü Azadxan Haqverdiyev çıxış ediblər.

Konfransda YAP Göygöl rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

## Yeni Azərbaycan Zəfər zirvəsindədir!







Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Xaçmaz rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Xaçmaz rayon təşkilatının sədri Emil Tağıyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, ötən dövr Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında, xüsusilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası kimi tarixi hadisələrlə zəngin olub: “Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində dövlətimizin qüdrəti daha da artıb. YAP bu uğurlu siyasətin avanqard qüvvəsi kimi fəaliyyətini yeni dövrün tələblərinə uyğun şəkildə davam etdirir. Partiyanın Xaçmaz rayon təşkilatı da fəaliyyətini YAP-ın Proqram və Nizamnaməsinin tələblərinə, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə uyğun qurub”.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, Ulu Öndər Heydər Əliyevin ölkəmizin inkişafında müstəsna xidmətlərindən bəhs edib. Bildirilib ki, Ümummilli Liderin müdrik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir: “2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad olunub, 2023-cü ildə keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Bütün bunlar milli dövlətçilik tariximizin şanlı səhifələri olmaqla qürurvericidir. Yeni Azərbaycan bu gün Zəfər zirvəsindədir”.

Milli Məclisin deputatı Mahir Süleymanlı çıxış edərək Yeni Azərbaycan Partiyasının fəaliyyətində gənclərin xüsusi rolundan bəhs edib. O, gənclərin ictimai-siyasi proseslərdə fəal iştirakının, onların təşəbbüskarlığının və partiya sıralarında təmsilçiliyinin əhəmiyyətini vurğulayıb. Həmçinin qeyd edib ki, gənc nəslin bilik və bacarıqlarının artırılması, onların idarəetmə proseslərinə cəlb olunması və fəal vətəndaş mövqeyinin gücləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Orxan Bayramov qeyd edib ki, Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı ərazi partiya təşkilatları ilə əlaqələrin genişləndirilməsi və səmərəli fəaliyyətin gücləndirilməsi istiqamətində məqsədyönlü iş aparır.

Daha sonra Xaçmaz şəhər 2 nömrəli tam orta məktəbin ərazi partiya təşkilatının sədr müavini Sevinc Sədullayeva, Xaçmaz Rayon Gənclər və idman sektorunun ərazi partiya təşkilatının sədri Elman Məmmədov çıxış ediblər.

Konfransda YAP Xaçmaz rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

## Hər bir nailiyyət gələcəyə sərmayədir










Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Salyan rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Yeni Azərbaycan Partiyası ölkədə siyasi sabitliyin və ictimai həmrəyliyin möhkəmləndirilməsində mühüm rol oynayır. Onun sözlərinə görə, partiyanın gücü onun milli maraqlar, azərbaycançılıq ideologiyası və dövlətçilik prinsipləri ətrafında birləşən üzvlərinin vahid mövqeyindən qaynaqlanır. E.Əhmədov hesabat dövründə YAP Salyan rayon təşkilatının gördüyü işlərdən və qarşıda duran vəzifələrdən bəhs edib.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasətin Azərbaycanın davamlı inkişafını təmin etdiyini bildirib. O qeyd edib ki, Vətən müharibəsində qazanılan tarixi Zəfər və ölkəmizin ərazi bütövlüyü ilə suverenliyinin tam bərpa olunması Azərbaycanın gücünü və beynəlxalq nüfuzunu daha da artırıb. R.Xəlilovun sözlərinə görə, bütün bu nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır.

Konfransda çıxış edən YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, müasir Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır: “Son illərdə ölkəmizin əldə etdiyi mühüm nailiyyətlər, həyata keçirilən irimiqyaslı layihələr, sosial-iqtisadi inkişaf və beynəlxalq müstəvidə möhkəmlənən mövqelər Azərbaycanın tərəqqi yolunda inamla irəlilədiyini nümayiş etdirir”.

O qeyd edib ki, bu tarixi uğurların əldə olunmasında ölkəmizin avanqard siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının xüsusi rolu var: “Hər bir nailiyyət gələcəyə sərmayədir. YAP bu gün qarşıya qoyulan hədəflərin reallaşdırılmasına öz töhfəsini verir”.

Konfransda YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov çıxış edərək Yeni Azərbaycan Partiyasının Azərbaycanın ictimai-siyasi həyatında aparıcı mövqeyindən bəhs edib. O qeyd edib ki, VII Qurultaydan sonra partiyanın fəaliyyətində müasir çağırışlara uyğun olaraq qarşıya qoyulan vəzifələrin icrası istiqamətində mühüm addımlar atılıb.

Salyan rayonu Statistika İdarəsinin rəisi, ərazi partiya təşkilat sədri Elnur Hüseynov və Salyan rayon Heydər Əliyev Mərkəzinin direktoru, ərazi partiya təşkilatının sədr müavini Nübar Bayramova çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizin qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində fəal rol oynadığını bildiriblər.

Konfransda YAP Salyan rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

## AK İspaniyaya 114,7 milyon avro ayıracaq



Avropa Komissiyası (AK) iyulun 30-31-i sərhədin kütləvi şəkildə qanunsuz keçilməsindən sonra Seutada vəziyyətin tənzimlənməsi üçün İspaniyaya 114,7 milyon avro yardım ayıracaq.

Bu barədə AK-nin saytında dərc olunan bəyanatında bildirilib.

Vəsaitin 82,7 milyon avrosu Sığınacaq, Miqrasiya və İnteqrasiya Fondundan (AMIF), 32 milyon avro isə Sərhədlərin idarə edilməsi və viza siyasətinə maliyyə dəstəyi aləti (BMVI) çərçivəsində ayrılacaq.

Vəsaitin bir hissəsi miqrantların yoxlanılması üçün obyektlərin yaradılmasına, Seutada qanunsuz qaldıqları halda onların geri qaytarılmasına dəstəyə, həmçinin müşayiətsiz yetkinlik yaşına çatmayanlar da daxil olmaqla, miqrantların qəbul imkanlarının genişləndirilməsinə yönəldiləcək.

Bundan əlavə, AK Avropa İttifaqı agentlikləri - “Frontex”, “Europol” və Avropa Sığınacaq Məsələləri Agentliyi (EUAA) tərəfindən İspaniyaya əlavə operativ dəstəyin göstərilməsini əlaqələndirib.

Vəsaitin ayrılması haqqında qərar İspaniyanın avqustun 24-də AK-yə ünvanladığı müvafiq müraciətindən sonra qəbul edilib.

## Taliban ABŞ-ın tələbini rədd edib

Taliban hökuməti Əfqanıstanda 2021-ci ildə əvvəlki hökumətin süqutundan sonra qalmış ABŞ silahlarının və hərbi texnikasının geri qaytarılması ilə bağlı Prezident Donald Trampın tələbini yenidən rədd edib.

AZƏRTAC “əl-Hədəs” telekanalına istinadla xəbər verir ki, bunu Əfqanıstanın Xarici İşlər Nazirliyinin sözçüsü Əbdülqəhhar Bəlxi açıqlayıb. O vurğulayıb ki, sözügedən texnika və silahlar artıq Əfqanıstan dövlətinin mülkiyyətidir və bu barədə hər hansı sövdələşmələr aparılmır.

Bəlxi ABŞ-nin Əfqanıstanda apardığı müharibəni xatırladaraq, Vaşinqtonun ölkəyə vurduğu zərərə görə əvvəlcə özü “haqq-hesab verməli” olduğunu bildirib.



ABŞ-nin Müdafiə Nazirliyinin məlumatına əsasən, 2021-ci ilin avqustunda Talibanın nəzarətinə keçən əvvəlki Əfqanıstan ordusunun sərəncamında ABŞ-nin maliyyəsi ilə alınmış təxminən 7 milyard dollar dəyərində silah və hərbi texnika olub. Tramp Ağ Evə qayıtdıqdan sonra həmin silahların qaytarılmasını dəfələrlə tələb edib.

# “OPEC+” ölkələri razılaşdı

## Neft hasilatının sabit saxlanması qərara alınıb

Yeddi “OPEC+” ölkəsi (Rusiya, Səudiyyə Ərəbistanı, Əlcəzair, Küveyt, İraq, Qazaxıstan və Oman) oktyabrda neft hasilatı kvotalarını sentyabr səviyyəsində saxlamaq barədə razılığa gəlib. Sazişin liderləri - Səudiyyə Ərəbistanı və Rusiya üçün neft hasilatının maksimal həddi müvafiq olaraq 10,478 mln. barel/gün və 9,949 mln. barel/gün səviyyəsində saxlanılıb. İraq 4,431 mln. barel/gün, Küveyt 2,676 mln. barel/gün, Qazaxıstan 1,628 mln. barel/gün, Əlcəzair 1,007 mln. barel/gün, Oman isə 841 min barel/gün hasil etmək hüququna malikdir. Saziş iştirakçıları onun tam icrasına nail olmağa sadiq qaldıqlarını təsdiqləyiblər.

“OPEC+” ölkələri bununla neft hasilatı kvotasını gündəlik təxminən 36 milyon bareldə saxlamış olacaq. Alyans üzvləri ilə bərabər, “OPEC” ölkələrinin də hasilatı öz kvotalarına uyğun olaraq sabit saxlaması gözlənilir. Belə ki, ABŞ və İran arasında imzalanmış memorandumdan sonra Fars körfəzi ölkələri hasilatı əhəmiyyətli dərəcədə artırmaqdadır. Beləliklə, qlobal neft tədarükündə əsas rol oynayan “OPEC” və “OPEC+” ölkələri gündəlik hasilat və nəql kvotasını ilin əvvəlindəki çərçivəyə qaytarmaqla, bazarı tarazlamaq niyyətindədir.

### Qiymətlərin 80-90 dollar olması münasib hesab edilir

“OPEC+” enerji ittifaqı adətən qlobal enerji bazarlarında baş verən fraqmentasiyalara uyğun qərarlar qəbul edir, bazarda nizamlayıcı rol oynamaq üçün yanacağın tədarük kvotalarını müəyyənləşdirir. Alyans üzvlərinin siyasətində neftin baha qiymətə satılması arzuolunan hesab edilmir, tədarükçülər orta qiymət zənbilinin 80-90 dollar arasında olmasını münasib hesab edərək bazara tələb olunan kvotaya uyğun neft çıxarır. Neftin qiymətləri yüksələndə adətən hasilat və nəql artırılır.

“OPEC+” ölkələri neftin qiymətləri ucuzlaşanda, hazırkı ssenariyə əsasən, yanacağın qiymətinin orta satış 70 dollardan aşağı düşməsi tendensiyası artanda hasilatı azaltmaq qərarı verir. Son 2 ildə dünya bazarında neftin orta satış qiyməti 80-90 dollar civarında dövr etdiyindən “OPEC+” ölkələri neftin hasilatını artırmaq yox, nisbi azaltmaq kursu üzrə hərəkət edib. Yaxın Şərqdə və Fars körfəzində baş verən son hadisələr və Hörmüz boğazının bağlanmasından sonra aprelin əvvəlində hasilatı 200 min barelə yaxın artıran “OPEC+” ölkələri bununla da qiymətlərin sabitliyinin təmin edilməsi üçün mühüm addımlardan birini atdı.



### Azərbaycan alyans üzvlərinin razılaşmasını dəstəkləyir

“OPEC +” ölkələrinin anlaşmasına əsasən, Azərbaycanın gündəlik nəql kvotası əvvəlki həcmdə - təxminən 450-540 min barel müəyyən edilib. Alyans ölkələrinin razılaşması çərçivəsində Azərbaycanın 2026-cı il üçün gündəlik neft hasilatı kvotasını 551 min barelədək artırması qərara alınsa da, son 2 ayda faktiki hasilat həmin rəqəmdən 90 min barel az olub. Belə ki, bu ilin ikinci rübündə Azərbaycanda gündəlik neft hasilatı orta hesabla 457 min barel təşkil edib

Mövcud kvota ölkəmiz üçün orta qiymət şkalasının tənzimlənməsində qənaətbəxş hesab edilir. Ümumiyyətlə, respublikamız istər “OPEC”in, istərsə də “OPEC+”in tədbirlərində qəbul edilən qərarlara həmişə hörmətlə yanaşıb və rəsmi Bakı üçün kvotanın azaldılması barədə dəfələrlə irəli sürülmüş təklifləri tam yerinə yetirib.

Azərbaycan alyansda etibarlı tərəfdaş və nümunəvi tədarükçü kimi təkcə neft ehtiyatlarının nəqlini deyil, həm də müasir qlobal bazarın əsas tələbatlarından birinə çevrilən alternativ yanacaq mənbələrinin səfərbər olunması və koalisiyalarla birlikdə nəqlində təşəbbüskarlıq edir. Xüsusilə də son dövrlərdə “yaşıl enerji” üzrə layihələrdə “OPEC”in ən iri təchizatçıları olan BƏƏ və Səudiyyə Ərəbistanı ilə “yaşıl enerji” konsepsiyasında yaxın tərəfdaşlıq və birgə günəş və külək stansiyalarının qurulması bu fəallığın nümunəsi kimi qiymətləndirilir. Bunu “OPEC”in baş katibi Haysam əl-Qays də etiraf edir və bildirib ki, kartel ölkələri ilə Azərbaycan arasında əlaqələri hər zaman yüksək olub, hazırkı əməkdaşlıq isə “qızıl dövr”ünü yaşayır. “OPEC”in rəhbərliyi qlobal səviyyədə yanacaq emissiyasının azaldılması və yaşıl hidreogenə keçidlə bağlı beynəlxalq təşəbbüslərin dəstəkləyicisi olan Azərbaycanın səylərini də yüksək dəyərləndirib.

### Bazardakı vəziyyətə uyğun yeni qərar veriləcək

Qlobal bazarın təxminən 40-42 faizini neftlə təmin edən “OPEC+” ölkələri oktyabrın 4-də növbəti toplantı zamanaı, neft bazarı ilə bağlı vəziyyətə uyğun yeni qərar verəcək. Alyans ölkələrinin istehsal və nəql kvotasının artırılıb-artırılmayacağı qiymətlərin və istehlakın səviyyəsinə uyğun qiymətləndirilərək veriləcək. Əgər neftin qiyməti sabit qalarsa, hasilatın azaldılmasına qərar verilməyəcək. Qiymətlərdə kəskin enişlərin baş vermə tendensiyası müşahidə olunarsa, risklər nəzərə alınaraq hasilatın azaldılmasına qərar verilə bilər.

Yeri gəlmişkən, ABŞ-ın Enerji İnformasiya Administrasiyası cari ilin ikinci yarısında neft qiymətlərinə dair ehtimallarını açıqlayıb. Məlumata görə, “Brent” markalı xam neftin bir barelinin orta qiyməti 78,84 dollar olacaq, “Light” markalı xam neftin orta qiymətinin isə cari ildə 73,61 dollar olacağı gözlənilir.

***E.CƏFƏRLİ***

# İrəvan üçün seçim anı

## Paşinyanı çətin Moskva səfəri gözləyir

Postmüharibə dönəmində Cənubi Qafqazda izlənilən siyasi proseslərdən biri də Ermənistanla Rusiya arasında yaşanan ixtilaflardır. Getdikcə daha kəskin hal alan ixtilaflar rəsmi İrəvanın ölkənin siyasi kursunu dəyişmək niyyətindən və bu istiqamətdə fəaliyyətlər sərgiləməsindən qaynaqlanır. Ermənistan yüz illiklər ərzində Rusiyanın forpostu rolunu oynayıb və bu ölkənin regionda siyasi, iqtisadi, hərbi mövcudluğunun təmin edilməsi üçün bir alət qismində istifadə olunub. Baş nazir Nikol Paşinyan isə bütövlükdə Ermənistanın ideoloji -siyasi xəttini dəyişməklə Qərbə sürətli inteqrasiya kursu götürüb.

Təbii ki, bu da Rusiyanı məmnun etmir və buna görə də Moskva Ermənistana təzyiqləri artırır. Ermənistanın Rusiya ilə onilliklər boyunca formalaşan siyasi, iqtisadi və humanitar əlaqələrinin çox sıx olduğunu nəzərə alsaq, deyə bilərik ki, hazırda rəsmi İrəvan çətin, perspektivi dumanlı görünən bir seçim qarşısındadır- Qərbə inteqrasiya, Avropa İttifaqına (Aİ) üzvlük vədi nə qədər cəlbedicidirsə, Rusiya ilə hətta cəmiyyətlər və ailələr səviyyəsində belə möhkəm olan bağları qırmaq ondan daha müşkül məsələdir.

### Bişkek görüşünün ardınca Moskva səfəri - hansı məsələlər müzakirə mövzusu ola bilər?

Son vaxtlarda Nikol Paşinyanla Rusiya Prezidenti Vladimir Putin müxtəlif platformalarda müzakirələrə qatılıblar. Sonuncu belə təmas bu günlərdə Qırğızıstanın paytaxtı Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) 25 illik yubiley Zirvə görüşü çərçivəsində baş tutub. Belə görünür ki, Ermənistan-Rusiya münasibətlərində yaranmış vəziyyətlə bağlı bütün məsələlərə bir görüş daxilində tam aydınlıq gətirmək mümkün olmayıb və tərəflər müzakirələri Moskvada davam etdirməyə lüzum görüblər.

Artıq konkret vaxt dəqiqləşdirilməsə də, Nikol Paşinyanın cari ilin sonunadək Moskvaya səfər edəcəyi rəsmən təsdiqlənib. Hətta Kreml rəsmiləri Moskva görüşünün detalları barədə də məlumatlar ötürürlər. Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında bildirib ki, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan Moskvada keçiriləcək görüşdə Ermənistanın inkişaf istiqamətinin seçilməsi və ölkədə müvafiq referendumun keçirilməsi məsələlərini müzakirə edə bilərlər. Mətbuat katibinin bu sözlərini Kreml rəhbərinin ötürdüyü tezislər anlamında qəbul etmək lazımdır.

Peskov liderlərin Bişkekdə baş tutan əvvəlki görüşünün olduqca məzmunlu və vacib keçdiyini xatırladıb: “Həmin görüşdə ikitərəfli ticarət-iqtisadi əməkdaşlıqla bağlı konkret məqamlar müəyyənləşdirildi və müvafiq qurumlar hazırda bu məsələlər üzərində işləyirlər. Lakin ən baş xətt - cənab Paşinyanın yaxın vaxtlarda Moskvaya səfər etməsi barədə əldə olunan razılaşmadır”.

Kreml sözçüsünün açıqlamasına görə, liderlər ikitərəfli münasibətlərin ana mövzusunu - Ermənistanın gələcək orientasiyasını, inkişaf kursunu və bu xüsusda referendumun təşkili məsələsini hərtərəfli nəzərdən keçirəcəklər. Dmitri Peskov vurğulayıb ki, Putin məhz bu məsələləri kompleks şəkildə müzakirə etmək üçün Paşinyanı Moskvaya dəvət edib və Ermənistanın hökumət başçısı dəvəti qəbul edərək tezliklə Rusiyaya gələcəyini bildirib.

### Moskvanın İrəvana geniş təsir rıçaqları və Ermənistanın məhdud manevr imkanları

Ermənistanın Rusiyadan qopması və Qərbə inteqrasiyası bu ölkə üçün uzun və ağrılı bir prosesə çevrilə bilər. Bu da ilk növbədə onunla bağlıdır ki, kasıb Ermənistanın məhdud manevr imkanları fonunda Moskvanın bu ölkəyə təsir rıçaqları kifayət qədər böyükdür. Bu sırada Rusiyadan iqtisadi asılılıq xüsusi bir məqamdır. Ermənistan özünün mavi yanacaq təminatını bu ölkədən aldığı ucuz qazla təmin olunur. İdxal olunan digər məhsulların çeşidi də kifayət qədər çoxdur. Eyni zamanda, son qadağalaradək Rusiya Ermənistanın kənd təsərrüfatı məhsulları üçün əsas bazar olub. Bu bazarın itirilməsi Ermənistan üçün ciddi sosial-iqtisadi fəsadlara gətirib çıxara bilər və Moskvanın tətbiq etdiyi mədud qadağalar fonunda bu təsirlər açıq-aydın hiss olunur. Ermənistan Rusiyanı itirməklə əsas ticarət tərəfdaşını da itirmiş olacaq.

Rusiya Ermənistanın İran və Türkiyə ilə sərhədlərini qoruyan ölkədir. Moskvanın Ermənistanda hərbi mövcudluğu var. Bundan başqa, Ermənistanın dəmir yolları şəbəkəsi Rusiyaya məxsusdur. Rusiya Ermənistana həmçinin bu ölkədə çalışan və ailələrinin dolanışığını təmin edən miqrant ermənilər üzərindən təsir göstərə bilər. Onlar üçün Rusiya şəhərlərində qalma və əmək fəaliyyəti ilə məşğul olma imkanlarının məhdudlaşdırılması, sərt miqrasiya qaydalarının işə salınması Ermənistana böyük həcmlərdə maliyyə axınının qarşısını ala və beləliklə də bu ölkədə sosial-iqtisadi vəziyyəti gərginləşdirə bilər.

Başqa təsir imkanlarını da sadalamaq mümkündür. Ancaq göstərilən faktlar Ermənistan üçün vəziyyətin nə qədər ciddi olduğu barədə konkret təsəvvür yaratmağa kifayətdir. Baş verənlər fonunda artıq bu rıçaqlar Ermənistana təsir göstərmək və onu yeni seçimindən geri döndərmək məqsədilə mərhələli şəkildə işə salınır.

Əsas məqamlardan biri də Ermənistanın Rusiyanın dominant güc kimi çıxış etdiyi Avrasiya İqtisadi Birliyində (AİI) qalması məsələsidir. Rusiya rəsmiləri bildirirlər ki, Ermənistanın Aİ-yə üzvlük prosesinə başlaması faktiki olaraq onun AİI-dən çıxmaq niyyətini elan etməsi deməkdir. Sızdırılan məlumatlara görə, Bişkek görüşündə bu məsələ yenidən diqqət mərkəzinə gətirilib və Rusiya tərəfi İrəvanı seçimini mümkün qədər tez etməyə çağırıb. Eyni zamanda, Ermənistanın Qərbə sıx inteqrasiya kursu götürməsinə cavab olaraq Rusiya bu ölkədən kənd təsərrüfatı və balıq məhsullarının idxalına ciddi məhdudiyyətlər tətbiq edib. Ermənistan isə bu qərarlarla bağlı rəsmi şəkildə Avrasiya İqtisadi İttifaqına şikayət ünvanlayıb. N.Paşinyan Ermənistanın hazırda AİI-dən çıxmaq planının olmadığını və ölkəsinin hər iki istiqamətdəki öhdəlikləri arasında heç bir hüquqi ziddiyyət görmədiyini iddia edir. O, iqtisadi diversifikasiya üçün zaman lazım olduğunu bildirərək dərhal referendum keçirilməsi tələbini yaxına buraxmır. Rusiya tərəfi xəbərdarlıq edir ki, Ermənistan AİI-dən ayrılacağı təqdirdə ucuz təbii qaz, rüsumsuz ticarət və Rusiyadakı erməni işçi qüvvəsinin transfer imkanları kimi mühüm iqtisadi imtiyazları tamamilə itirəcək.

Ermənistanın digər bir çətinliyi isə qonşu İranda uzanan müharibənin yaratdığı reallıqlardan qaynaqlanır. Eyni zamanda, Türkiyə ilə sərhədlər hələ də bağlıdır. Həmçinin son bir ildə tənzimləmə prosesi əhəmiyyətli dərəcədə irəliləsə də, Azərbaycanla yekun sülh sazişi imzalanmayıb.

Bu məqamda qeyd edək ki, Avropa İttifaqından Rusiyanın ticarət qadağalarına reaksiya özünü çox gözlətməyib. Belə ki, Avropa İttifaqı Şurası Ermənistandan gələn ixracın təxminən 80 faizi üçün idxal rüsumlarını iki il müddətinə ləğv edən müvəqqəti ticarət liberallaşdırılması qərarını təsdiqləyib.



### Avropa İttifaqına üzvlük kursu - Ermənistan uzun və çətin yolu keçə biləcəkmi?

Ermənistan rəsmilərinin ölkənin AİI-də daha uzun müddət qalmasnı təmin etmək və Rusiyadan gələn təzyiqləri yumşaltmaq məqsədi daşıyan açıqlamalarına rəğmən, İrəvan artıq Avropa İttifaqına üzv olmaq prosesinə rəsmən start verib. Ötən il Ermənistan parlamenti Avropa İttifaqına üzvlük prosesinin başlanması ilə bağlı qanun layihəsini qəbul edib.

Cari ilin avqust ayında Nikol Paşinyan parlamentdə hökumətin proqramını təqdim edərkən bildirib ki, Ermənistan yaxın gələcəkdə Avropa İttifaqına üzvlüklə bağlı rəsmi müraciətin hazırlanması üzərində işə başlaya bilər. O qeyd edib ki, 2025-ci ilin martında parlamentdə qəbul olunan müvafiq qanun məhz bu prosesə start verilməsini nəzərdə tutur. Onun fikrincə, məsələni referenduma yalnız proses real şəkildə qiymətləndirilə və müzakirə oluna biləcək mərhələyə çatdıqdan sonra çıxarmaq məqsədəuyğundur. Paşinyan bildirib ki, bunun üçün ilk növbədə Ermənistan Aİ-yə üzvlüklə bağlı rəsmi müraciət etməlidir. O, bunun kifayət qədər genişmiqyaslı iş tələb etdiyini və yaxın vaxtlarda prosesə başlanmasının mümkün olduğunu deyib. Onun fikrincə, referendum Aİ-yə müraciət edildikdən, cavab alındıqdan və yol xəritəsi hazırlandıqdan sonra keçirilməlidir.

İndiki məqamda Ermənistanla Avropa İttifaqı arasında ikitərəfli münasibətlərin təməlində dayanan əsas sənəd 2 dekabr 2025-ci il tarixində Brüsseldə keçirilmiş Avropa İttifaqı və Ermənistan arasında Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış “Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik”dir. Sənəd Ermənistanın iqtisadi inkişafına, təsisatların gücləndirilməsinə, həmçinin demokratiya, qanunun aliliyi və ədalət mühitinin Aİ standartlarına uyğunlaşdırılmasına xidmət edir. Tərəfdaşlıq gündəliyi müdafiə, təhlükəsizlik, hibrid təhdidlər, dezinformasiya və kiberhücumlara qarşı mübarizə sahələrində əməkdaşlığı əhatə edir. Həmçinin Ermənistana maliyyə təminatı da vəd edilir. Belə ki, sənəddə Aİ tərəfindən Ermənistanda sülh və dayanıqlılığın gücləndirilməsi məqsədilə 15 milyon avro ayrılması nəzərdə tutulub.

Tərəfdaşlıq gündəliyinin əsas müddəaları bunlardır. Lakin verilən vədlərə və təmtəraqlı müddəalara rəğmən, bu sənədin kasıb Ermənistanı Aİ-yə üzvlüyə daşıyacağına inam elə bu ölkənin özündə də azdır. Ümumiyyətlə, bir sıra partiyaların təmsilçiləri Ermənistan-Avropa İttifaqı tərəfdaşlığını özündə ehtiva edən sənədləri “absurd” adlandırırlar. Belə mülahizələr ona əsaslanır ki, Aİ-yə üzvlük yolu uzun və çətin proseslərdən keçir. Bundan ötrü namizəd statusu alan ölkələrin siyasi, iqtisadi, hüquqi reallıqları dəyişdirilərək Avropa standartları səviyyəsinə yüksəldilməlidir. Bunu etmək üçün Ermənistanın sadəcə heç bir potensialı yoxdur. Digər tərəfdən, rəsmi İrəvan başqa bir Cənubi Qafqaz ölkəsinin-Gürcüstanın Aİ yolunda büdrəməsini də nəzərə almalıdır. Zamanında Avropa İttifaqının bir növ sevimli övlad kimi qayğı və dəstək göstərdiyi Gürcüstan hakmiyyəti indi Qərb üçün arzuolunmaz sayılır və təbii ki, ölkənin Aİ marafonu da dayandırılıb.

Ən vacib məqamlardan biri isə tərəfdaşlıq gündəliyi sənədinin postmüharibə mərhələsində regionda Azərbaycanın səyi ilə başlayan sülhyaratma prosesi ilə ziddiyyət təşkil etməsidir. Yeri gəlmişkən Azərbaycan Xarici İşlər Nazirliyi bunula bağlı şərh verərək kəskin mövqeyini ortaya qoyub. Yeddi illik əməkdaşlıq dövrü üçün nəzərdə tutulan sənəddə sülh gündəliyi ilə bir araya sığmayan və əslində Azərbaycana qarşı yönəlmiş bir sıra müddəaların öz əksini tapması yolverilməzdir. Xüsusilə də Qarabağdan könüllü köç etmiş ermənilərə “status” vədi, yanlış hüquqi iddialar, TRIPP layihəsinə toxunulmaması, Avropa İttifaqının Ermənistandakı Müşahidə Missiyasının fəaliyyəti və hərbi məzmunlu istinadlar rəsmi Bakı tərəfindən qəbul olunmayaraq pislənilir. Azərbaycan tərəfi bildirir ki, real dialoq və tərəfdaşlıq yalnız obyektivlik, balanslaşdırılmış mövqe və beynəlxalq hüquqa hörmət əsasında mümkündür.

### Suya düşən ilk gözləntilər - Ermənistan üçün vizasız rejimin tarixi açıqlanmır

Avropa İttifaqına üzvlük prosesində ermənilərin əsas gözləntisi ən yaxın perspektivdə Aİ məkanına vizasız rejimin onlara da tətbiq ediləcəyi ilə bağlı idi. Lakin Aİ rəsmilərindən gələn açıqlamalar bu gözləntiləri suya salıb əridir. Belə ki, Ermənistan üçün vizasız rejimin tətbiqinin tarixi açıqlanmır və qeyri-müəyyən olaraq qalır. Ermənistanın Baş naziri Nikol Paşinyan və hökumət rəsmiləri əvvəlcə prosesin 2-3 il çəkəcəyini (yəni 2028-ci ilə qədər) ehtimal etsələr də, sonradan rəsmi hədəf olaraq 2026-2031-ci illər dövlət proqramına viza rejiminin tam ləğvini 2029-cu il üçün daxil ediblər. Bununla belə, yenilənmiş hədəf də real görünmür. İki tərəf arasında rəsmi viza dialoqu 2024-cü ilin sentyabrında başlayıb. Aİ Viza LiberallaşdırılmasıFəaliyyət Planını (VLAP) İrəvana təqdim edib və hazırda qiymətləndirmə missiyaları vasitəsi ilə islahatları (sərhəd idarəçiliyi, miqrasiya, təhlükəsizlik) yoxlayır. “Avropa Komissiyası Ermənistan vətəndaşlarının Şengen zonasına vizasız səfər rejiminin tətbiq olunacağı konkret tarixi açıqlamağı hələ tez hesab edir”. Bu barədə Brüsseldə keçirilən brifinqdə Avropa Komissiyasının mətbuat xidmətinin rəhbəri Paula Pinyo bildirib. P.Pinyonun sözlərinə görə, Ermənistanla danışıqlar hələ ki bir sıra istiqamətlər üzrə müzakirə mərhələsindədir. O qeyd edib ki, Brüssel İrəvanla əməkdaşlığın gücləndirilməsi üzrə müxtəlif istiqamətləri müzakirə edir: “Onlar lazımi hazırlıq səviyyəsinə çatdıqda, Aİ münasibətlərin növbəti mərhələsinə keçə biləcək”, - deyə qurum rəsmisi bildirib.

Ermənistan cəmiyyəti üçün Aİ-yə vizasız gedişin qısa müddətdə rəsmiləşdirilməsi ona görə vacibdir ki, çoxlu sayda erməni ölkədəki şəraiti yaşamaq üçün məqbul saymır və çıxış yolu kimi Aİ-yə getməyi xəyal edir. Belə görünür ki, onlar həyatlarının ən ümdə arzularına çatmaq üçün hələ çox gözləyəcəklər...

***Mübariz FEYİZLİ***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Diasporumuz beynəlxalq arenada...




## Dünyanın müxtəlif guşələrindən Azərbaycana uzanan bağlar

Dünyanın müxtəlif ölkələrində yaşayan insanlar üçün Vətən anlayışı bəzən coğrafi sərhədlərdən daha böyük məna daşıyır. İnsan doğulduğu torpaqdan uzaqda yaşaya bilər, amma dilini, mədəniyyətini, yaddaşını və mənsubiyyət hissini özü ilə daşıyır. Məhz bu baxımdan diasporlar yalnız xaricdə yaşayan icmalar deyil, həm də xalqları bir-birinə bağlayan mühüm sosial və mədəni körpülərdir.

Ankarada keçirilən İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin müsəlman diasporlarının I Forumu da bu reallığın müasir dünyada getdikcə daha böyük əhəmiyyət qazandığını göstərdi. Sentyabrın 8-9-da baş tutan forum “Köklərdən yollara” mövzusu ətrafında müxtəlif ölkələrin diaspor qurumlarını bir araya gətirdi. Tədbirdə Azərbaycan nümayəndə heyətinə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov rəhbərlik edib. Forumun əsas diqqət mərkəzində diasporların müasir dünyada rolu, milli kimliyin və mədəni irsin qorunması, gənc nəslin Vətənlə əlaqələrinin möhkəmləndirilməsi və müxtəlif ölkələrdə yaşayan icmalar arasında əməkdaşlığın genişləndirilməsi kimi məsələlər dayanıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır**




## Əsas vəzifələrimizdən biri...

Komitə sədri çıxışında bildirib ki, Vətəndən kənarda yaşayan diaspor nümayəndələri Azərbaycanın dövlət siyasətinin təbliğinə töhfə verirlər: “Diasporların rolu yalnız öz ölkələrinin maraqlarının müdafiəsinə töhfə verməklə məhdudlaşmır. Diasporlar ölkələr və xalqlar arasında körpü rolunu oynayır, yaşadıqları cəmiyyətlərin sosial, iqtisadi, elmi və mədəni həyatına mühüm töhfələr verir, eyni zamanda, tarixi Vətənləri ilə əlaqələri diqqətlə qoruyur, milli kimliyin, dilin və mədəni irsin keşiyində dayanırlar. Biz qəti əminik ki, xaricdə yaşayan soydaşlarla bağlı müasir siyasətin mahiyyəti diaspor təşkilatları ilə münasibətlərin qurulması ilə məhdudlaşmır. Əsas vəzifələrimizdən biri diasporun bilik, təcrübə və potensialından səmərəli istifadə etmək, onun tarixi Vətənlə əlaqələrini möhkəmləndirmək və əməkdaşlıq üçün yeni imkanlar yaratmaqdır”.

## Diaspor sahəsindəki müstəqil siyasətimiz öz bəhrəsini verir

F.Muradov bildirib ki, Azərbaycanın diaspor sahəsindəki müstəqil siyasəti öz bəhrəsini verməkdədir: “Komitə müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor qurumları ilə sıx əməkdaşlıq edir və bu günə qədər Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrlə ikitərəfli sazişlər imzalayıb. Meksika ilə də diaspor sahəsində Memorandum imzalanıb”.

Türkiyənin Xaricdəki Türklər və Qohum İcmalar Baş İdarəsi (YTB) ilə imzalanan əməkdaşlığa dair Memorandumu misal göstərən F.Muradov əlavə edib: “Bu sənəd yeni sahələri əhatə edir. Belə ki, YTB-nin təqaüd proqramında xaricdə yaşayan soydaşlarımıza xüsusi yanaşma mövcuddur. Diaspor Komitəsinin rəyi ilə bu gənclər təqaüd ala bilirlər. Digər ölkələrlə də bizim konkret əməkdaşlıq istiqamətlərimiz müəyyən olunub və bu sahələr memorandumlarla öz əksini tapır”.

Hazırda dünyada 70-dən çox ölkədə diasporla məşğul olan strukturların fəaliyyət göstərdiyini bildirən F.Muradov deyib: “Biz həmin ölkələrlə görüşlər keçirir, əməkdaşlıq perspektivlərini müzakirə edirik. Bu yaxınlarda dünyanın ən güclü diasporlarından birinə sahib İrlandiyada səfərdə oldum. Bu istiqamətdə səylərimizi davam etdirəcəyik”.

## Diskriminasiyaya qarşı mübarizə ön planda

Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev diaspor məsələsinə, xaricdə yaşayan soydaşların kimliyinin qorunmasına, onların mədəni inteqrasiyasına və yaşadıqları ölkələrin ictimai həyatında fəal iştirakının təşviqinə xüsusi əhəmiyyət verir. F.Muradov diaspor nümayəndələrinin gənc nəsli ilə işin bu gün xüsusilə vacib olduğunu bildirib. Onun sözlərinə görə, yay düşərgələri və dil məktəbləri də daxil olmaqla, çoxsaylı proqramlar diasporla əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfə verir: “Azərbaycan Prezidentinin siyasətini rəhbər tutaraq, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı icmalarla əlaqələrin genişləndirilməsinə, diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə xüsusi əhəmiyyət veririk.

Diskriminasiya ilə mübarizə və stereotiplərin aradan qaldırılması, irsin və milli kimliyin qorunması, gənc nəslin Vətənlə əlaqələrinin saxlanılması, yaşadıqları ölkələrin cəmiyyətlərinə inteqrasiya da daim bizim diqqətimizi tələb edir. Müasir mərhələdə İƏT ölkələrinin diasporları yalnız ümumi imkanların üzə çıxarılmasına deyil, həm də çağırışlara qarşı mübarizəyə dəstək verir”.

*Yeganə BAYRAMOVA*

# Susduqca böyüyən problem...

## İntiharların arxasında nə dayanır?

İnsanın həyatı bəzən kənardan göründüyü kimi deyil. Üzdə təbəssüm, gündəlik həyatda adi görünən davranışlar, insanlarla qurulan ünsiyyət - bütün bunların arxasında heç kimin görmədiyi dərin bir ümidsizliklər gizlənə bilər. Məhz buna görə intihar yalnız bir insanın həyatı ilə bağlı məsələ deyil. Bu, ailənin, dostların, iş yoldaşlarının, bütövlükdə cəmiyyətin üzləşdiyi ciddi sosial və psixoloji problemdir.

Hər il sentyabrın 10-u dünyada İntiharla Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur. Bu gün təkcə statistika ilə yox, həyatla, itirilmiş gəncliklə, susmuş sözlərlə, vaxtsız bitmiş ömürlərlə bağlıdır. Günün məqsədi sadəcə problemdən danışmaq deyil, onu görmək, anlamaq və bir insanın yaşamaq ümidi itməmiş əlini tutmaqdır.

**İntiharın yalnız bir səbəbi yoxdur...**

İntiharı təkcə bir səbəblə izah etmək düzgün deyil. “Ailəsində problem var idi”, “işini itirmişdi”, “depressiyada idi” kimi sadə izahlar çox vaxt məsələnin mürəkkəbliyini əks etdirmir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, sosial, psixoloji, bioloji, mədəni və ətraf mühit amillərinin müxtəlif kombinasiyası intihara səbəb ola bilər. Depressiya və digər psixi sağlamlıq problemləri risk faktorları sırasında olsa da, intihar hallarının hamısını psixi xəstəliklə izah etmək olmaz. Bəzi hallarda insan ağır həyat böhranı, münasibət problemləri, maliyyə çətinliyi, itki, tənhalıq, xroniki ağrı, zorakılıq və ya digər sarsıdıcı hadisə fonunda özünü çıxılmaz vəziyyətdə hiss edə bilər.

Burada vacib məqam odur ki, intihar etmək istəyən hər insanın mütləq psixi xəstəliyi var düşüncəsi doğru deyil. Bəzən insan sadəcə probleminin həll olunacağına dair ümidini itirir.

ÜST-nın qlobal hesablamalarına əsasən, hər il təxminən 727 min insan intihar nəticəsində həyatını itirir. Digər diqqətçəkən fakt budur ki, qlobal intiharların 73 faizi aşağı və orta gəlirli ölkələrdə baş verib.




**Ən yüksək göstəricilər hansı ölkələrdədir?**

Ölkələri müqayisə edərkən sadəcə intihar hallarının sayına deyil, 100 min nəfərə düşən intihar səviyyəsinə baxmaq daha doğrudur. Çünki əhalisi böyük olan ölkədə hadisələrin mütləq sayı çox, lakin əhaliyə nisbətdə göstərici aşağı ola bilər.

ÜST-ün məlumatlarında ən yüksək göstəricilər arasında Lesoto və Esvatini diqqət çəkir. ÜST məlumat bazasında 2025-ci il üçün Lesotoda göstərici 100 min nəfərə təxminən 28,7 min ölüm, Esvatinidə isə 27,2 min ölüm olub. Cənubi Koreyada da göstərici yüksəkdir - təxminən 27,5 ölüm. Dünya üzrə ötən il orta göstərici təxminən 100 min nəfər 9,2 min ölüm olub.

**Kişilər daha çox risk altındadır**

Qlobal statistikada diqqət çəkən məqamlardan biri cinslər arasındakı fərqdir. ÜST-ün qlobal qiymətləndirmələrində kişilərin intihar nəticəsində ölmə göstəricisinin qadınlardan əhəmiyyətli dərəcədə yüksək olduğu göstərilib. Hesablamada kişilər üçün göstərici 100 min nəfərə 12,6 min ölüm, qadınlar üçün isə 5,4 min ölüm olub. Yəni kişilərdə ölüm göstəricisi iki dəfədən çox yüksəkdir.

Bu fərqin səbəbləri mürəkkəbdir. Kişilərin emosional çətinliklərini daha az ifadə etməsi, yardım istəməyə tərəddüd etməsi, sosial stereotiplər, alkoqoldan istifadə, sosial təcrid və böhran vəziyyətlərində dəstək alma imkanlarının məhdud olması kimi amillər müəyyən rol oynaya bilər.

**Gənclər arasında vəziyyət narahatedicidir...**

İntihar bütün yaş qruplarında müşahidə oluna bilər. Lakin gənclər arasında problem xüsusi diqqət tələb edir. ÜST-ün məlumatına görə, intihar 15-29 yaşlı insanlar arasında dünyada üçüncü əsas ölüm səbəbidir. Həmin yaş qrupunda qadınlar üçün isə intihar ikinci əsas ölüm səbəblərindən biri kimi qeydə alınıb.

Bu yaş dövrü insanların həyatında mühüm dəyişikliklərin baş verdiyi mərhələdir. Təhsil, gələcək peşə seçimi, işsizlik, münasibətlər, ailə təzyiqi, tənhalıq və özünəinam problemləri bəzi gənclərin psixoloji yükünü ağırlaşdıra bilər. Bu səbəbdən məktəbdə, universitetdə və ailədə gənclərin emosional vəziyyətinə diqqət yetirmək ən azı onların akademik göstəricilərinə nəzarət qədər vacibdir.

**Ölkəmizdə vəziyyət necədir?**

Dövlət Statistika Komitəsinin (DSK) Dayanıqlı İnkişaf Məqsədləri üzrə rəsmi platformasında “İntihar səbəbindən ölüm səviyyəsi” ayrıca göstərici kimi təqdim olunub.

Ölkəmizdə intihar ölüm səviyyəsi 100 min nəfərə 1,56 min göstərilir. Başqa sözlə, Azərbaycan beynəlxalq məlumatlarda intiharların xeyli aşağı göstəriciyə malik ölkələri sırasında yer alır.

**Medianın da böyük məsuliyyəti var...**

İntihar haqqında yazmaq adi kriminal xəbər hazırlamaqdan fərqlidir. Hadisənin təfərrüatlarını, istifadə olunan üsulu, yeri və digər sensasion detalları ön plana çıxarmaq düzgün yanaşma deyil. Belə xəbərlər həssas vəziyyətdə olan insanlara mənfi təsir göstərə bilər. Media daha çox problemin səbəblərinə, risk faktorlarına, yardım imkanlarına və profilaktikaya diqqət yetirməlidir. Belə ki, jurnalistikanın əsas məqsədi faciəni böyütmək yox, cəmiyyətin problemdən nəticə çıxarmasına kömək etməkdir.

**İntiharın qarşısını almaq mümkündürmü?**

Mütəxəssislər intiharın qarşısını almağın mümkün olduğunu və bunun üçün elmi əsaslı müdaxilələrin mövcudluğunu bildirirlər. Buraya psixoloji yardımın əlçatanlığının artırılması, risk altında olan şəxslərin vaxtında müəyyənləşdirilməsi, insanın böhran zamanı tək buraxılmaması və yüksək ölüm riski yaradan vasitələrə çıxışın məhdudlaşdırılması kimi tədbirlər daxildir. Ailə, məktəb, universitet, iş yeri, media, sosial xidmətlər, səhiyyə sistemi və bütövlükdə cəmiyyət bu mübarizənin bir hissəsidir.

*Yeganə BAYRAMOVA*

## İtmişdir

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi tərəfindən Həsənov Heydər Zülfüqar oğluna verilmiş M/V 086648 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4440
Sifariş: 1160
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova